# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 09 (3333) Cümə axşamı / 28-29 yanvar 2021-ci il Qiymətı 40 qəpik


# Tağıyevin heykəli müəmması



Bir neçə gün əvvəl - yanvarın 25-də XX əsrin əvvəllərində yaşamış azərbaycanlı milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin anadan olmasının növbəti ildönümü tamamlandı.

Qeyd edək ki, bir müddət əvvəl Prezident İlham Əliyevin mədəniyyət və incəsənət xadimləri ilə görüşündə qəbul edilən qərarlardan biri də Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması və Bakının müvafiq ərazisində ucaldılması ilə bağlı idi.

Keçən zaman ərzində bu məsələ ilə bağlı mətbuata verilən açıqlamalarda deyilmişdi ki, heykəl yaxın zamanlarda şəhərin mərkəzi küçələrinin birində qoyulacaq. Lakin bir ilə yaxın zaman keçməsinə baxmayaraq, nə heykəl qoyulub, nə də hansı tarixdə qoyulacağı məlumdur. Hafta.az məsələ ilə bağlı aidiyyəti qurumlarla əlaqə saxlayıb.

■ **Öncə Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri Mətin Hüseynov söylədi ki, heykəl artıq hazırdır:** "Onun nə vaxt quraşdırılması ilə bağlı tapşırıq gözləyirik. Yeri isə elə bir il öncə deyildiyi kimi, Bakı metrosunun İçərişəhər stansiyasının önü olaraq müəyyənləşdirilib".

■ **Daha sonra məsələ ilə bağlı Mədəniyyət Nazirliyi ilə əlaqə saxladıq. Buradan da bizə heykəlin hazır olduğu deyildi:**

"Heykəl hazırdır, qalıb yerinə quraşdırmaq. Heykəl bürünc materialdan hazırlanıb. Elə hazırda da məsələyə təhkim edilən qurumlar onun üzərində çalışırlar, bu da tezliklə həllini tapacaq". Lakin qurumdan məsələnin həllini ləngidən səbəblərə aydınlıq gətirilmədi.

Qeyd edək ki, Hacı Zeynalabdin Tağıyevin heykəli Xalq rəssamı Xanlar Əhmədovun layihəsi əsasında hazırlanıb.

■ **Elə növbəti müsahibimiz də rəssam-heykəltəraş Xanlar Əhmədov oldu. Onun sözlərinə görə heykəl təzə hazır olmayıb:**

"Ötən ilin mart ayından bu yana Hacı Zeynalabdin Tağıyevin heykəli hazırdır. Qərarlaşdırmışdıq ki, Novruz bayramına qədər qoyulsun. Pandemiya ilə əlaqədar olaraq bu günə qədər qalıb. Hələ nə qədər belə davam edəcəyi isə bilinmir". Heykəltəraş onu da qeyd etdi ki, heykəl 2 metr 60 santimetr ölçüsündədir, tuncdan hazırlanıb. Alt hissəsi qırmızı qranitdən olacaq. Onun ölçüləri isə hələ məlum deyildir.

■ **Paytaxtın mərkəzi küçələrinin birində Hacı Zeynalabdın Tağıyevin heykəlinin ucaldılması təklifini ilk irəli sürən Əməkdar artist Bəhram Bağırzadənin isə mövzuya yanaşması bu cür oldu. "Heykəlin ucaldılmasına az qalıb".** Ümid edirik ki, tezliklə mövcud problemlər öz həllini tapar. Şəhərin mərkəzində böyük insan, böyük xeyriyyəçi, milli kadrların yetişdirilməsində əvəzsiz rolu olan şəxsiyyətin heykəli ucaldılar.

✍ **Banu**



Cavabdeh qurumlar məsələnin yaxın zamanlarda həll ediləcəyini söyləyir

MÜSAHİB

## Nə "KQB", nə dövlət?!



**Sabir Rüstəmxanlı,**
Xalq şairi, millət vəkili

*Azərbaycan Ordusunun 44 günlük Vətən Müharibəsində əldə etdiyi zəfər milli-vətənpərvərlik ruhuna, qələbə əzmi ilə yazılan şeirlərə, musiqilərə də can verdi. İsbat olundu ki, millətin sənəti, mədəniyyətinin ahəngliyi, siyasəti, birliyi mübarizliyindən ruh alaraq daha çox sevilir. arixin müəyyən dönəmlərində bu millətə qarşı qurulan xarici pusqular, rus hərbinin, zindan maşınlarının törətdiyi qırğınlar, repressiyalar onun azadlıq səsini boğa bilmədi. Fiziki olaraq qolları zəncirlənsə də, millətin illərlə nüvələşən, bərkiyən mənəvi gücünü sarsıda bilmədilər. Azərbaycan Ordusu Qarabağı işğaldan azad etdi. Düşmən üzərində qələbənin bu sirrini də öyrəndik... Bu və ya digər məsələlərlə bağlı "Həftə içi"-nə müsahibə verən Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı bəzi məqanlara diqqət çəkib.*

*Millətin qələbə zəfəri, ilk növbədə, sözdən, ədəbiyyatdan başlayır*

▸▸ Səh. 6

MÜSAHİB



**Teymur Qasımlı,**
beynəlxalq münasibətlər üzrə analitik

■ Unutmayaq ki, Azərbaycan üç imperiyanın varisi ilə qonşudur...

■ Hazırda Qafqazda siyasi, hərbi və iqtisadi mənada Rusiya-Türkiyə-İran üçbucağı mövcuddur...

■ Xarici siyasətimizi gücləndirməli, yeri gələndə hücum, yeri gələndə müdafiə olunmalıyıq.

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...



**Hindistanda fermerlərlə polislərin toqquşması...**

GÜNÜN SİTATI

"Siz deyirsiniz ki, Azərbaycan Dağlıq Qarabağdakı hərbi əməliyyatlarda xarici muzdlulardan istifadə edib? Bununla bağlı heç bir dəlil tapılmayıb"



**Hayko Maas,**
Almaniyanın Xarici İşlər naziri

KARİKATURA




**ABŞ Kanadaya gedən neft kəmərini bağladı...**

## Regionumuzda yeni imkanlar açılıb

**Hikmət Hacıyev,**
Azərbaycan Prezidentinin köməkçisi

Türkiyə ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlığın Vətən müharibəsində uğurlu nəticəsini, "Bayraktar"ların döyüşlərdə nə qədər faydalı olduğunu gördük.

▸▸ Səh. 2

STATİSTİKA



**Fevralın 1-dən hibrid tədrisi yenidən tətbiq ediləcək. əyani dərslərlə yanaşı distant formada da təhsil davam etdiriləcək.**

Bakı məktəblərində fevral ayının 1-dən 274 məktəbdə 1092 sinif, 27 122 uşaq əyani məktəqədər təhsilə başlayacaq. Eyni zamanda 182 018 şagird I-IV siniflərdə əyani təhsilə davam edəcək.



▸▸ Səh. 5

## SOCAR-da nələr dəyişəcək?

## Müsahib

# "Unutmayaq ki, Azərbaycan üç imperiyanın varisi ilə qonşudur..."

***Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun 44 günlük müzəffər savaşından sonra regionda baş verən proseslər də göstərir ki, Ermənistanı məğlub etmiş Azərbaycanın gələcəyi yenə də əsasən Rusiya-ABŞ-İran geo-siyasi üçbucağında edəcəyi şahmat gedişlərindən asılı olacaq. Yanvar ayında Rusiya Prezidentinin vasitəçiliyi ilə Moskva görüşləri, Rusiya XİN başçısı S.Lavrovun mütəmadi Qarabağ bəyanatları, ABŞ-da yeni seçilmiş Prezident Co Baydendən gözləntilər, İran XİN rəhbərinin son Bakı-Moskva-İrəvan gedişi və s. nələrdən xəbər verir?.. Bəhs edilən mövzu ilə bağlı "Həftə içi"nə müsahibə verən İstanbul Universitetinin Beynəlxalq Münasibətlər üzrə doktorantı, beynəlxalq münasibətlər üzrə analitik Teymur Qasımlı diqqətəlayiq fikirlər səsləndirib.***



**Teymur Qasımlı,**
Beynəlxalq münasibətlər üzrə analitik

***- Teymur bəy, İran baş diplomatının Bakıya son səfərini, Qarabağ haqqında söylədiklərini, ardınca Moskva, sonra da İrəvana gedişini necə dəyərləndirirsiniz?***

- İran birinci Azərbaycan-Ermənistan müharibəsində də iki ölkə arasında diplomatik gedişlər etdi. Tehran Azərbaycan-Ermənistan tərəflərinin görüşünü də təşkil etdi, amma bu, sonda uğursuzluğa duçar oldu...

İran o zaman diplomatik görüşləri ona görə təşkil edirdi ki, Rusiyanın Qafqazda hegemon olmasını istəmirdi. Həmin dövrlər Rusiya bəzi məsələlərdə zəif idi. Buna rəğmən İran sonda istədiyini edə bilmədi. Hazırda isə İranın etdiyi diplomatik gedişlər, o cümlədən Xarici İşlər nazirinin səfərləri ilə özünün Qafqazda varlığını göstərmək məqsədi güdür. Amma İranın hazırda Rusiyaya qarşı hər hansı təsir gücü yoxdur. Və hətta bəzi məsələrdə Rusiyadan aslıdır...

İrəvana səfərində isə Cavad Zərif göründüyü kimi, Bakıda etdiyi xoşagəlimli jestləri fərqli diplomatik uslubda Ermənistan tərəfinə də etdi və "Ermənistanın ərazi bütövlüyü İranın qırmızı xəttidir", - söylədi...

***- Rusiyanın hazırkı Azərbaycan-Qarabağ siyasətinin mahiyyəti nədən ibarətdir? Sizcə, Moskvanın bölgədəki "sülhməramlı missiya"sının sonu necə bitəcək?***

- Hesab edirəm ki, Rusiyanın hazırkı siyasəti Qarabağ münaqişəsinin bərpasına xidmət edir. Putin bu siyasətlə "Qafqazda tək hegemon mənəm" demək istəyir. Təbii ki, Azərbaycan dövləti, iqtidarı, müxalifət Rusiyanın bu siyasətinə qarşı dirənir. 10 Noyabr bəyanat-razılaşmasında yazılıb ki, 5 ildən sonra Rusiyanın əsgəri Azərbaycan torpağını tərk etməlidir. Görünən odur ki, Rusiya buradan çıxmaq istəməyəcək. Azərbaycan tərəfi 5 il ərzində xarici siyasətimizi düzgün aparmalı, Rusiya əsgərinin burdan çıxması üçün hər şey etməlidir. Azərbaycan vətəndaşı, xalqımız isə iqtidarlı-müxalifətli dövlətin yanında olmalı və ona dəstək verməlidir...

***- Bəs Rusiyada demokratik dəyişikliklər olsa, Kremlin Azərbaycan, konkret olaraq Qarabağla bağlı siyasətində də dəyişikliklər ola bilərmi?***

- Bilirsiniz, tarix də şahiddir ki, Rusiya dövləti yarandığından bu günə qədər bu ölkədə heç bir zaman demokratiya olmayıb və rus xalqı demokratik dəyərlərlə idarə olunmayıb. Yalnız Sovetlər dağıldıqdan sonra - 1991-1999-cu illər arası Rusiyada demokratik ideyalar hakim olub. Putin iqtidara gəldikdən sonra isə Rusiyada demokratik dəyərlər ortadan qalxıb və bu ölkənin demokratik imici mənfiyə doğru dəyişib. Ümumiyyətlə, sual meydana çıxır: rus xalqı demokratiya istəyirmi?..

Tarix göstərir ki, Çar Rusiyasi zamanında belə, demokratik imicli rus siyasətçiləri və dövlət xadımləri belə, Azərbaycan xalqının müstəmləkə olması tərəfdarı olublar. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra mühacirətdə olan anti-bolşevik Rusiya siyasətçiləri də Azərbaycanın müstəqil dövlət olmasını istəmir, əleyhinə təbliğat aparırdılar... Birinci Qarabağ müharibəsi gedərkən Rusiyada guya demokratik dəyərlərə sahib olan hökümət olub. Bu demokratik hökuməti idarə edənlər də Ermənistana hər cür dəstək veriblər. Ermənilər Qarabağı elə demokrat (!) Yeltsin zamanında, onun dəstəyi ilə işğal etməyib?.. Demokrat (!) Boris Yeltsin zamanında Rusiyanın liberal dəyərlərə sahib olan, Rusiyanın Avropaya inteqrasiyasının tərəfdarı olan Xarici İşlər naziri Andrey Kozırev bizim dövlət adamlarımızla görüşündə bunu açıqca deyirdi. "Liberal dəyərlərə sahib Rusiyada liberal iqtisadiyyat olsun", - deyən Yeqor Qaydar nazir olanda Ermənistana onun göstərişi ilə silah yardımı olunub və erməniləri fəlakətdən xilas edib...

Bütün bunları niyə deyirəm? Məsələ ondadır ki, Rusiyada hakimiyyətə kim gəlir-gəlsin, istər Azərbaycanın suverenlik məsələsi, istər Qarabağ məsələsi ilə bağlı hər zaman Rusiyanın dövlət maraqlarının yeridilməsi və ən önəmlisi imperializm siyasəti davam edəcək...

***- Birdən demokrat hesab olunan Navalnı və ya onun kimilər Moskvada hakimiyyətə gəldi, onda necə?***

- Konkret Navalnı və ya onun kimisinin hakimiyyətə gələcəyi halda da Rusiyanın Güney Qafqaz, Azərbaycan və ayrıca Qarabağla bağlı siyasətində mahiyyətcə hər hansı dəyişlik olmayacaq. Digər tərəfdən, Navalnı rus milliyyətçisidir, Navalnı ermənipərəstdir. Həm də Navalnının Rusiyada hər hansı qalib gəlmək ehtimalı da demək olar ki, çox azdır...

***- Bayden administrasiyasının Azərbaycana münasibəti necə olacaq? O, Qarabağa status məsələsində ciddi təkid edəcəkmi?***

- Dövlətlərin dostu olmur, maraqları olur. ABŞ-da ermənilərin güclü təsir imkanları var. Bayden komandasında da ermənipərəstlər var. Önəmli vəzifələrdə yəhudikökənli insanlar var. Bu günlərdə Pakistanmənşəli dairə prokuroru da təyin olunub... Azərbaycan gücü çatdığı qədər belə adamlardan istifadə etməlidir...

Bundan başqa, nəzərə almaq lazımdır ki, Bayden və Ərdoğan şəxsi dostdurlar. Bayden vitse-prezdent olanda İstanbulda Ərdoğanı ziyarət edib; həmin vaxt Ərdoğan xəstə idi və maraqlı görüş olub. Düşünürəm ki, Bayden "pərdəarxası"ndan da olsa, Türkiyəyə Qarabağ məsələsi ilə bağlı dəstək verəcək. 44 günlük Vətən müharibəsində Türkiyənin arxasında ABŞ vardı, belə də davam edəcək...

***- Bəzi məlumatlara görə, ABŞ-ın yeni təyin olunmuş dövlət katibi ermənipərəstdir...***

- Düşünürəm ki, yeni dövlət katibi ABŞ-ın milli maraqlarını qoruyacaq. Onun ermənipərəst olması ABŞ-ın dövlət maraqlarından üstün deyildir...

***- Sizcə, Azərbaycan qısa müddətdə bu Rusiya-ABŞ-İran "üçbucağı"ndan salamat çıxacaqmı? Yuxarı Qarabağda yurisdiksiyasını bərpa edib ərazi bütövlüyünü tam qoruyub saxlaya biləcəkmi?***

- Hazırda Qafqazda siyasi, hərbi və iqtisadi mənada gerçək olaraq Rusiya-Türkiyə-İran üçbucağı mövcuddur. ABŞ isə həmin üçbucaqda Türkiyəyə dəstək verir... Azərbaycan xalqı və dövləti tarixdən dərs çıxarmalı və daxili və xarici siyasətimiz buna görə qurulmalıdır. XIX əsrdə Azərbaycan torpaqlarında baş verən siyasi hadisələri, həm Azərbaycan Xalq Cümhiriyyəti dövrü, ən önəmlisi, 27 aprel işğalı ərəfəsini yaxşı öyrənməliyik. Eyni zamanda müstəqil olduğumuz gündən bu günə qədərki dövrü. Elə etməliyik ki, 27 aprel 1920-ci il bir daha təkrarlanmasın. Azərbaycan üç imperiyanın varisi ilə qonşudur. Bu üç imperiyadan ikisi Azərbaycanı müstəqil dövlət kimi qəbul etmir və bunu açıqca deyir. Digər varis öz dövlət maraqlarını qorumaqla Azərbaycanın yanındadır. Zaman-zaman tarixin dövrlərində bu üç dövlət bəzən Azərbaycan məsələsində birləşib, bəzənsə yolları ayrılıb. Biz bunlardan dərs çıxarmalı və gecə-gündüz prosesləri izləməliyik. Xarici siyasətimizi gücləndirməli, yeri gələndə hücum, yeri gələndə müdafiə olunmalıyıq. Bunun üçün hər birimiz Azərbaycan milliyyətçisi olmalıyıq. Etnik milliyyətçiliyi nəzərdə tutmuram. Bütün Azərbaycan vətəndaşlarını qucaqlaycayaq milliyyətçiliyin olması lazımdır. 44 günlük Vətən müharibəsində bu sübut olundu... Üçrəngli bayrağımızın altında yumruq kimi birləşərək, Azərbaycanımızı hər cür imperiya ambisiyalı dövlətlərin təhdid və hücumlarından qorumalıyıq. M.Ə.Rəsulzadənin gözəl sözü var: "Azərbaycan xalqı tarixin hər dövründə uçurum qarşısında olub, ancaq uçuruma yuvarlanmayıb. Azərbaycanı tarixi şəxsiyyətlər xilas edib...".

> *Hazırda Qafqazda siyasi, hərbi və iqtisadi mənada Rusiya-Türkiyə-İran üçbucağı mövcuddur...*

***✍ Sultan Laçın***

# Ermənilər Xocavənddə Njdeyə heykəl qoyublar

## Aktual

**Ermənilər Xocavənddə cəllad və faşist Qaregin Njdeyə heykəl qoyublar. O Njdeyə ki, "Türkə qarşı mübarizəsiz bir gün olmamalıdır" şüarı ilə çıxış edən bir faşistdir. Prezident İlham Əliyev Aşqabad sammitində bildirmişdi: "Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir.**



Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib". Bu gün isə məhz Rusiya sülhməramlılarının nəzarəti altında faşistə Azərbaycan ərazisində belə bir heykəlin qoyulması hansı anlama gəlir, Azərbaycan hansı addımları atılmalıdır?

**■ Politoloq Fikrət Sadıqov "Həftə içi"nə bildirib ki, indi faşistə heykəl qoyan erməni separatçıları ilə müharibə aparmaq fikrində deyilik, lakin qəti olaraq buna qarşı etiraz bildirilməlidir.**

"Mən ermənilərin bu hərəkətini qıcıqlandırıcı addım hesab edirəm. Onlar buna münasibətimizin necə olacağını çox gözəl dərk edirlər və təxribat yaratmaq istəyirlər. Əgər ermənilər yenə kiminsə "burnunun qanamasını" istəyirlərsə, onu təşkil edə bilərik. Biz də yaxşı bilirik ki, Xocavənd Azərbaycana məxsusdur və faşist ermənilərin orda qalması müvəqqəti xarakterlidir". Politoloq hesab edir ki, bütün hallarda erməni özbaşınalığına qarşı susmamalı, etirazımızı bildirməliyik. "Biz məsələni Rusiya və sülhməramlıların qarşısında qaldırıb, buna qəti şəkildə etiraz etməli və heykəlin ordan götürülməsinə nail olmalıyıq. Rus sülhməramlıları istəsəydilər, orada heç bir heykəl qoyulmazdı. Şübhə etmirəm ki, buna göz yumub, onlar üşün şərit yaradıblar. Bu qəti şəkildə yoverilməzdir".

> *Rus sülhməramlıları istəsəydilər, orada heç bir heykəl qoyulmazdı.*
>
> *Bir faşistin heykəlinin Rusiyanın nəzarətində olan ərazidə ucaldılması Moskvaya qarşı təhqirdir.*
>
> *Ermənilər cılız, yararsız hərəkətlərə yol verməklə bizi çaşdırmaq istəyirlər.*

**■ Millət vəkili Asim Mollazadə "Həftə içi"nə bildirib ki, bu gün beynəlxalq Holokost günüdür və ermənilərin Azərbaycan ərazisində Njdenin heykəlini ucaltması Ermənistanın faşist mahiyyətini bir daha ortaya qoyur.** "Bu gün bütün dünya, eləcə də Azərbaycan II Dünya Müharibəsində Almaniya faşizmi tərəfindən qətlə yetirilmiş yəhudiləri yad edir. Njde "SS"çi idi və o, işğal olunmuş Sovet İttifaqının ərazisində yəhudilərin və digər millətlərin kütləvi qətlində iştirak eləmiş bir cinayətkardır. Rusiya faşizmlə mübarizədə çox qurbanlar verib və bir faşistin heykəlinin Rusiyanın nəzarətində olan ərazidə ucaldılması dünyaya hörmətsizliklə yanaşı, Rusiyaya qarşı təhqirdir". Millət vəkili bildirib ki, artıq Rusiya nümayəndələri bu barədə fikirlərini ifadə ediblər. Onun sözlərinə görə, Njdəyə heykəl qoyulması faşizm təbliğatının real göstəricisidir.

"30 ildir ki, Azərbaycan bu faşizmin real fəaliyyəti ilə üz-üzə qalıb və bu gün bizim mübarizəmizin bir forması da faşizm ideologiyası ilə mübarizədir. Ermənilər belə heykəllər ilə öz dəyərlərini qabardırlar". Rusiyanın bəzi şəhərlərində də Njdenin heykəllərinin olduğunu deyən millət vəkili qeyd edib ki, əslində, orada faşizmin təbliğatı qanunvericilik baxımından qadağan olunub. "Ola bilər ki, sülhməramlılar bunu başa düşmürlər. Amma Rusiya sülhməramlıları öz ölkələrinin qanunlarına riayət etməlidir". Rusiya sülhməramlılarının qanunla qadağan edilən heykəlin Azərbaycanda qurulmasına gözardı yanaşmasına gəlincə, A.Mollazadə bildirir ki, buna qarşı tədbirlər görülməli və bütün dünyanın diqqəti buna cəlb edilməlidir.

**■ Politoloq Tofiq Abbasov isə deyir ki, Ermənistan məğlub olan bir tərəfdir və sıxıntılar içində çapalayaraq, özünün mənfur ideologiyasının simvollarını guya yaşadır və bununla Azərbaycana gözdağı verir.** Politoloq hesab edir ki, ermənilərin faşistə abidə qoyması əslində onların zəifliyindən irəli gəlir. "Bu o demək deyil ki, bu cür hallarla barışmalıyıq, xeyr. Bunların cavabı veriləcək. Uzun müddət işğala qarşı öz hazırlıqlarımızı görürdük. Bir çoxları - daxildən, xaricdən deyirdilər ki, Azərbaycan müharibə aparmaq iqtidarında deyil. Azərbaycan döyüşkən millət deyil, dünya ermənilərin arxasındadır.

Əsas məsələni həll eləmişik, əsgərlərimiz düşməni məğlub edib. İndi işğaldan azad olunmuş əraziləri bərpa etməliyik və bütün dünya rayonlarımızın necə dağıdıldığını görür. Hədəflərimiz budur. Ermənilər cılız, yararsız hərəkətlərə yol verməklə bizi çaşdırmaq istəyirlər. Bütün bunların hamısı onlar üçün heç bir rol oynamayacaq. Onsuz da yararsız erməni simvollarını dağıdacağıq. Xankəndinə, Xocalıya bayrağımızı taxacağıq və hər şey yoluna düşəcək. Sadəcə, ermənilərin belə cılız oyunlarına başımızı qatmamalıyıq".

Sülhməramlıların müşahdəsi altında belə bir heykəlin qoyulmasının anlamına gəlincə, T.Abbasov bu məsələyə hər hansı müdaxilənin edilməsinin onların səlahiyyətində olmadığını deyir:

"Sülhməramlılar orada ona görə yerləşdiriliblər ki, üz-üzə dayanan tərəflər arasında münaqişə yaranmasın. Siz deyən məsələ onların səlahiyyətinə daxil deyildir. Orada digər qaniçənlərinin də şəklini qoyublar. Bu isə onların çarəsizliyindən irəli gəlir. Bütün dünyada ermənilər xəcalətindən ölür, onlar hamıdan imdad diləyirlər. Bunların xisləti budur. Vaxtı gələndə bunların hamısına əncam çəkəcəyik".

***✍ Tahirə Qafarlı***

# PREZİDENTƏ YAZIRLAR



**Tülin Berrak, Trabzon, Türkiyə:**

- Hörmətli Prezidentim İlham Əliyev,

Mən 16 yaşında məktəbliyəm, bir türk qızıyam. Adım Tülin Berrak Uzundur. Zəfər gününüz mübarək olsun!

Müzəffər Ali Baş Komandan İlham Əliyev, 30 illik həsrət və göz yaşı artıq geridə qaldı. 44 gün ərzində şanlı Azərbaycan Ordusu Ermənistana qalib gəldi. Onlar Ali Baş Komandanımızın "dəmir" yumruğunun gücünü gördülər. Düşmənləri doğma torpaqlarınızdan qovdunuz. Qarabağ əzəli Azərbaycan torpağıdır. Biz hər gün sizlər üçün dualar etdik. Çox şükür, Azərbaycan Ordusu müzəffər oldu. Biz tək millət, iki dövlət olaraq bütün dünyaya gücümüzü göstərdik.

Şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyev, Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm. Böyük zəfərinizi ürəkdən təbrik edirəm. Hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğan və biz, türk xalqı olaraq Sizin yanınızdayıq.

Düşmənlərimiz azad olunmuş torpaqlardakı məscidlərimizi viran qoyublar. Bilirəm ki, Sizin sayənizdə bu məscidlər yenidən bərpa olunacaq. Mən də bu işlərdə payım olsun deyə bir günlük xərcliyimi Qarabağ Dirçəliş Fonduna köçürülməsi üçün göndərirəm. İnşallah, dağılan evlərimizi, məscidlərimizi birlikdə yenidən quracaq, yollarımızı bərpa edəcəyik.

Trabzondan Sizə sevgilərimi və salamlarımı göndərirəm. Bir gün mütləq Qarabağa gəlmək və Şuşanı görmək çox istərdim.

**Allah yar və yardımçınız olsun, qəhrəman Ali Baş Komandan!**

---

**Lətifə Mikayılova, Sabirabad:**

- Möhtərəm cənab Prezident,

Ötən ilin sonlarında Siz xalqımıza böyük qələbə əzmini yaşatdınız. İllərlə həsrətini çəkdiyimiz əzəli torpağımız olan Qarabağımızın azad edilməsi bizi sevinc göz yaşlarına boğdu. Bu sevinci və qüruru bizlərə yaşatdığınız üçün Sizə ürəkdən minnətdarıq.

Sizin rəhbərliyiniz altında bizim cəsur və igid döyüşçülərimiz bu zirvəni canları və qanları bahasına fəth etdilər, doğma torpaqlarımızı düşmən tapdağından azad etdilər.

Bu gün bütün xalqımız Sizinlə fəxr edir, cənab Prezident. Allah Sizi bu xalqın başının üstündən əskik etməsin!

---

**İlham Musayev, Qazax:**

- Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan!

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbəmiz münasibətilə Sizə dərin minnətdarlığımı bildirirəm. Qürur duyuram ki, Sizin kimi Müzəffər Ali Baş Komandanımız var.

Cənab Prezident, 200 il ərzində işğal olunmuş Azərbaycan ərazilərinin bir qarışı belə indiyədək geri qaytarılmamışdır. Siz yeganə ölkə başçısınız ki, bu xalqın başında duraraq, 30 ilə yaxın düşmən tapdağı altında qalan doğma torpaqlarımızı işğaldan azad etdiniz. Azərbaycan xalqını dünyaya qəhrəman xalq olaraq tanıtdınız.

Bu tarixi qələbədə mənim oğlum Musayev Tural İlham oğlunun da payı vardır. O, bu gün də bir hərbçi olaraq Vətənimizi qorumaqda davam edir. Qəhrəmanlığına və şücaətinə görə 7 medalla təltif edilib.

Cənab Prezident, mən Qazax rayonunun İkinci Şıxlı kəndində yaşayıram. Rayonumuzda şəhid ailələrinə, qazilərimizə və bütün vətəndaşlarımıza göstərilən yüksək diqqət və qayğıya görə Sizə dərin təşəkkürümü bildirirəm.

**Allah dövlətimizi, Ordumuzu və Ali Baş Komandanımızı qorusun!**

---

**Raisa Vəliyeva, Sabirabad:**

- Müzəffər Ali Baş Komandan!

Bu günlərdə Sizin rəhbərliyin altında qəhrəman Ordumuzun şücaəti sayəsində doğma torpaqlarımızın işğaldan azad olunması sevincini yaşayırıq. Bütün xalqımız buna görə Sizə minnətdardır. Biz Sizin kimi cəsarətli, humanist bir Prezidentimiz olduğu üçün fəxr edirik.

Biz əminik ki, uzun illərdir yurd həsrəti çəkən vətəndaşlarımız tezliklə doğma el-obalarına qayıdacaq, daha xoşbəxt və firavan yaşayacaqlar.

---

**İbrahim Quliyev, Cəlilabad:**

- Hörmətli cənab Prezident,

Sizi və müzəffər Azərbaycan Ordusunu Vətən müharibəsində qazanılan böyük zəfər münasibətilə ürəkdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür arzulayır, Azərbaycanın işıqlı gələcəyi və xalqımızın rifahı naminə gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

**Allah Sizi bu xalqın başının üstündən əskik etməsin! Var olun, cənab Prezident!**

---

**Nicat Məhəmmədov, Sabirabad:**

- Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Sizi şanlı qələbəmiz münasibətilə ürəkdən təbrik edirəm. Bir azərbaycanlı kimi keçirdiyim qürur hissi ölçüyəgəlməzdir. Azərbaycan xalqı Sizinlə fəxr edir.

Sizə uzun ömür, cansağlığı, bu şərəfli işinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram. Yolunuz daim açıq və uğurlu olsun!

**Uca Tanrı Sizi qorusun!**

# Ənənəvi təhlükə - qohum evliliklər

***“Statistikaya əsasən deyə bilərik ki, Azərbaycanda indi də qohum nikahlar kifayət qədər çoxdur. Belə nikahlar anadangəlmə fiziki anomaliyalı və talassemiya, hemofiliya, fenilketonuriya kimi genetik xəstəlikli uşaqların doğulma riskini artırır”. Bu fikirləri mətbuata açıqlamasında Səhiyyə Nazirliyi Respublika Ailə Planlanması Məsləhətxanasının baş həkimi Sitarə Haqverdiyeva bildirib. Onun sözlərinə görə, məsləhətxanada gələcək valideynlər nəsildə baş verə biləcək genetik pozulmalar barədə nikahdan əvvəl, ya da heç olmasa hamiləlikdən əvvəl məlumatlandırılır.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

MEDİA

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

## Layihə

### Azərbaycanda bu problemin qarşısını necə almaq olar?

Qeyd edək ki, qohum nikahlar Azərbaycanla yanaşı, əksər ölkələrdə də problem olaraq qalmaqdadır. Statistikaya görə, dünyaya gələn uşaqların ən azı 8,4 faizi qohum nikahdan doğulur. Qohum nikahlar Qərbi Aralıq dənizi və Cənubi Hindistanda çox geniş yayılıb. Qohum evliliklərdə problemli uşaqların doğulma riski digərlərinə nisbətən, ikiqat artaraq 8-9 faiz təşkil edir. Almaniya qohum evliliklərinə çox az təsadüf edilən ölkələrdəndir. İnsanların təhsil səviyyəsi və genetik xəstəliklər mövzusundakı məlumatının artması bu cür evliliklərin 0,3 faizdən aşağı düşməsinə, hətta böyük şəhərlərdə daha da azalmasına səbəb olub. Yaponiyada isə qohum evlilikləri 6 faiz nisbətindədir, hətta adalarda 29 faizə yüksəlməkdədir. Ərəb ölkələri, Cənubi Hindistan, Misir və Türkiyə kimi ölkələrdə isə bu nisbət daha da yüksəkdir. Avropa və Amerikada isə qohum evliliklərindən doğulacaq uşaqların qüsurlu, irsi xəstəliklər və əqli qüsurlu olma vəziyyəti geniş yayılıb. Qohum evliliyində olan problem, sağlam olan şəxslərin genlərində daşıdıqları xəstəliklərin uşaqlarına keçməsidir. Birinci dərəcə qohumlar arasında evliliklərdə genlərin 1/8-i paylaşıldıqda genetik olaraq aşkarlanan xəstəlik riski 3 faizdir. Aralarında qan bağı olmayan ata-analardan doğulan uşaqlarda isə 2 faizdir. Qohum nikahların ən çox rast gəlindiyi ölkələrdən olan Türkiyədə bu səbəbdən uşaqlarda bir sıra irsi xəstəliklərin yüksək olduğu müşahidə edilir. Belə ki, Türkiyədə qurulan evliliklərin 30-35 faizi qohum nigahların payına düşür. Bu evliliklər irsi xəstəlikləri özü ilə gətirir. Ən çox rast gəlinən irsi xəstəliklərdən biri də talassemiya olduğu vurgulanır. Belə ki, Türkiyədə sümük iliyi nəql edilən 400 xəstənin 150-i talassemiyalı xəstələrdir. Onu da qeyd edək ki, dünyada qohum evliliyi nəticəsində doğulan uşaqların bir qismi 1 yaşına çatmadan ağır infeksiyalar səbəbindən ölür. Bu isə immun çatışmazlığı ilə bağlıdır ki, bunların da bir qismi məhz qohum evlilikdən qaynaqlanır. Belə ki, insanda 23 cüt xromosom var. Mütəxəssislər bildirirlər ki, hər bir cüt xromosomun biri anadan, digəri atadan gəlir. Xromosomlar DNT-ni formalaşdırır. DNT-nin funksiyalarını müəyyənləşdirən, kodlaşdıran bölümlərinə isə gen deyilir. Bizlər nəsillər öncəsi atalarımızın bizə hədiyyə etdiyi genetik xüsusiyyətlərlə yaşayırıq. Qısası, bu genlər bizim bütün həyat tərzimizin divarlarını hörür. Bir və ya bir neçə gen bizdəki özəlliyin məlumatını özündə daşıyır. Qohum evlilər eyni soydan gəldikləri üçün ana və atanın eyni geninin sürətini daşıyırlar. Qohum evliliklərdə zərərli genlərin bir-biri ilə qarşılaşma ehtimalı yüksəkdir. Ona görə də onların uşaqlarının müəyyən xəstəliklərə tutulması ehtimalı çox yüksək olur. Beləliklə, qohum nigahlar genetik xəstəlikləri artıran önəmli faktordur. Əgər dünyada əngəlli doğulan uşaqlar 1 faizdirsə, qohum evliliklərində 9 faizdir. Bu ailələrdə ölü və yarımçıq doğuşların sayı yad evliliklərə nisbətən 2 dəfə çoxdur. Həkimlər bildirir ki, qohum evliliklərdə ən çox rast gəlinən qan xəstəlikləri, göz, qulaq, əzələ - sinir, ürək - damar və şəkər xəstəlikləri, ağıldankəmlik və sairədir. Qan xəstəlikləri arasında isə talassemiya, hemofiliya və başqa qan xəstəlikləri daha çox yayılıb.





**Adil Qeybulla,**
tibb elmləri doktoru,
professor

*“Birinci dərəcəli qohumlar, yəni xalaoğlu, əmioğlu, əmiqızı və s. arasında evliliklərdə əsas məsələ dölün sağlam gen götürmə ehtimalın məhdudlaşır”*

Talassemiya nəsildən-nəsilə keçən çox ağır irsi qan xəstəliyidir. Belə xəstələrdə lazım olan miqdarda qan hemoqlobin hasil olunmur, qanla birlikdə bədənə dəmir də köçür ki, bu da orqanizmdə dəmir artıqlığı yaradır. Dəmir artıqlığı 11 yaşından sonra insanın qara ciyərini, ürəyi, sonra endokrin sistemini zədələyir. Yığılmış dəmir ürək-damar çatışmazlığının inkişafı nəticəsində xəstənin ölümünə səbəb olur.

Bu nikahın yaratdığı fəsadlardan biri otozomal resesif xəstəlikləri adlanır. Burada genetik keçmənin özəllikləri isə odur ki, ilk növbədə, cinsiyyət fərqi yoxdur. Otosomal resessiv xəstəliklər hər nəsildə özünü göstərmir. Sağlam ata-anadan doğulan uşaq xəstədirsə, həm ana, həm də ata daşıyıcıdır. Normal olan ata-ananın uşaqlarının 1/2-nin daşıyıcı olması, 1/4-nin isə genotipik olaraq tamamilə sağlam olması gözlənir. Xəstə adam ilə genotipik olaraq tamamilə sağlam şəxs evlənərsə, uşaqlarının hamısı daşıyıcı olacaq. Xəstə şəxslə daşıyıcı şəxs evlənərsə, uşaqlarının yarısı xəstə, yarısı daşıyıcı olacaq. Daşıyıcılar, fenotipik olaraq sağlam olsalar da xəstə genləri sonrakı nəsillərə ötürən daşıyıcı vəzifəsini yerinə yetirirlər.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən tibb elmləri doktoru, professor Adil Qeybulla bildirib ki, burada əsas məqam hansı kateqoriya qohum evliliyinin olmasıdır:** ”Təbii ki, birinci dərəcəli qohumlar, yəni xalaoğlu, əmioğlu, əmiqızı və s. arasında evliliklərdə əsas məsələ dölün sağlam gen götürmə ehtimalın məhdudlaşır. Yəni döl hər iki valideyndən gen götürdüyünə görə yaxın qohumlarda müxtəlif xəstəliklər nəsil üzrə davam elədiyindən məsələn, şəkərli diabet, döldə onların qalma ehtimalı daha çox artır. Ona görə də yaxşı olar ki, evlənən cütlüklərin qohumluq əlaqələri olmasın. Bu, mentalitetə bağlı məsələdir. Ona görə hesab edirəm ki, bu cür məsələlər təbliğatla həyata keçirilməlidir. Yəni bunu insanlara hansısa qadağalarla etdirmək mümkün deyil. Hər halda qadağalar da dövlət səviyyəsində həyata keçirilməlidir. Ən əsası, maarifləndirmə işlərinin aparılması və insanlara qohum evliliklərin mənfi fəsadlara gətirib çıxardığını təbliğ etmək lazımdır”.

■ **Məsələyə münasibət bildirən millət vəkili Musa Quliyev də hesab edir ki, yaxın qohumlarla evliliyə qadağa qoyulması insan hüquqlarına ziddir:** “Cəmiyyətdə belə evliliklərdən qüsurlu uşaqlar doğulsa da, ancaq insanlar evlilikdən öncə genetik analizlərdən keçib bunun qarşısını ala bilərlər. Yəni qanuna dəyişiklik etməkdənsə, maarifləndirici tədbirləri artırmaq lazımdır. Bütün müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da yaxın qohumların evlənməsi halları məqbul sayılıb və kifayət qədər də geniş yayılıb. Düzdür, yaxın qohumların evliliyi zamanı genetik xəstəliklərin üzə çıxma ehtimalı yüksək olur və daha çox qüsurlu uşaqların dünyaya gəlməsinə səbəb olur. Bu o demək deyil ki, biz qohum evliliklərinə qadağa qoyub, kimin-kiminlə evlənməsinə qərar verməliyik? Sadəcə səhiyyə sahəsində maarifləndirici addımlar atmalı, insanlar arasındakı mədəni əlaqələri yüksəltməliyik. Onu da deyim ki, qohum evlilikərində dünyaya gələn uşaqların heç də hamısı qüsurlu olmur. Bəzən belə ailələrdə dünyaya gələn uşaqlar daha istedadlı, fiziki və əqli cəhətdən daha yüksək potensiala sahib olur. Burada əsas məsələ sağlam və xəstə genlərin kombinasiyasından gedir. Əgər hər hansı bir nəsildə xəstə gen daşıyıcıları varsa, həmin nəsildə qohum evlilikləri riskli ola bilər. Bunu ayırd etmək isə o qədər də çətin deyil. Bir neçə ildir ki, ölkədə nikaha girən şəxslərin icbari - tibbi müayinəsi həyata keçirilir. Hazırda genetik xəstəliklərin yoxlaması aparılmasa da, gələcəkdə müəyyən əlavələr etmək olar. İndiki mərhələdə öz əmisi qızı, yaxud da xalası qızı ilə evlənmək istəyənlər həkimə müraciət edərək genetik xəstəlik daşıyıcısı olub-olmadıqlarını müəyyənləşdirə bilər”.

### Yeri gəlmişkən

**Yaxın illərdə qohumlar arasında nikahın mənfi nəticələrinə dair mövzulara orta məktəb dərsliklərində də rast gələ biləcəyik. Bu məsələ Baş Nazir Əli Əsədovun ötən il imzaladığı “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”nın təsdiq edilməsi haqqında qərarda öz əksini tapıb.**

Qərara əsasən, Təhsil Nazirliyi təhsil müəssisələrində maarifləndirmə tədbirlərinin keçirilməsini, maarifləndirici və metodoloji vəsaitlərin dərc edilməsini, eyni zamanda erkən nikahın və qohumlar arasında nikahın gənclərin həyat və sağlamlığına təhlükəsi barədə valideynlər arasında təbliğat işini təşkil edəcək. Eyni zamanda, 9-11-ci siniflər üçün nəzərdə tutulmuş dərsliklərə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair mövzular daxil ediləcək.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Bərpa prosesinə qatılmaq istəyən ölkələr...

## Qarabağ



### Kim hansı təkliflə gəlir?

***İşğaldan azad edilən ərazilərin bərpası ilə bağlı dövlət rəhbərliyi səviyyəsində xüsusi proqramlar qəbul edilir. Hökumət azad edilmiş torpaqların bərpası üçün “Böyük qayıdış” adlı genişmiqyaslı kampaniyaya başlayıb.***

Cari ilin dövlət büdcəsindən bu ərazilərin bərpası və yenidən qurulması üçün 1,3 milyard dollar ayrılıb. Füzulidə yeni avtomobil yolunun və hava limanının inşasının təməli qoyulub. Tərtər bölgəsinin Talış və Suqovuşan kəndlərində yeni yolların inşası işlərinə başlanılıb. Bu il Qarabağ bölgəsinin müxtəlif yerlərində bir sıra iqtisadi və mədəni tədbirlərin təşkili də nəzərə tutulur. Bu məsələdə ən çox diqqəti cəlb edən məqamlardan biri də xarici şirkətlərin sözügedən məsələdə müxtəlif investisiya layihələri ilə çıxış etməlidir.

Rəsmi məlumatlara görə, 1991-2020-ci illərdə işğaldan azad edilən ərazilərdə ermənilər tərəfindən 700 tarix və mədəniyyət abidəsi, 927 kitabxana, 808 mədəniyyət mərkəzi, 85 musiqi və incəsənət məktəbi, 100 mindən çox əsərin olduğu 22 muzey, dörd sənət qalereyası, dörd teatr, iki konsert salonu və on minlərlə yaşayış binası və müxtəlif təyinatlı binalar məhv edilib. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı bölgələrinin bütün infrastrukturu praktik olaraq yer üzündən silinib. Məhv edilən obyektlərin ümumi dəyəri on milyardlarla dollar qiymətləndirilir.

Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri də daxil olmaqla, 300-dən çox yaşayış məntəqəsi azad edildikdən sonra ziyan və dağıntıların maliyyə dəyərinin ətraflı hesablanmasına başlanılıb.

Ölkə rəhbərliyinin bəyanatlarından da aydın görünür ki, hökumət müharibə şəraitində tamamilə dağıdılmış bölgəni bərpa etmək üçün həm milli, həm də xarici investisiyalara ümid bəsləyir. Azərbaycan dövləti bölgənin yenidən qurulması üçün xarici xarici investisiyaları cəlb etmək məqsədilə hüquqi prosedurların sadələşdirilməsi, qanunvericiliyə dəyişikliklərin edilməsi istiqamətində addımlar atır.

Hafta.az sözügedən ərazilərdə fəaliyyət göstərmək istəyən şirkətlərin hansı dövlətləri təmsil etdiyini araşdırmağa çalışıb. Gəlin birlikdə nəzər yetirək.

■ **Təbii ki, bərpa prosesində ən sıx əməkdaşlıq 44 günlük Vətən Müharibəsi zamanı Azərbaycana ən böyük dəstəyi göstərən Türkiyə şirkətləri ilə qurulur.** Türk şirkətləri Füzuli - Şuşa yeni avtomobil yolunun inşasında iştirak edirlər. Azərbaycan İnnovasiya Agentliyi, Türkiyənin qabaqcıl texnoparkı GOSB ilə Qarabağ bölgəsində ortaq yüksək texnoloji parkın yaradılması barədə anlaşma memorandumu imzalayıb.

Türkiyənin dövlətə məxsus Ziraat Bankı Azərbaycanın Şuşa şəhərində filial açmaq niyyətindədir. Azərbaycandakı bank rəsmiləri daxili prosedurların tamamlandığını və lazımi icazə alındıqdan sonra Şuşada bir filialının açılacağını söyləyiblər. Bank nümayəndələrinin sözlərinə görə, açılış tarixi Bakının qərarından asılıdır.

Bu arada Türkiyədəki qabaqcıl iş adamlarını və sərmayədarlarını birləşdirən TÜMKİAD rəhbərliyi azad edilmiş torpaqlara 50 milyon dollar sərmayə yatırmağı planlaşdırdıqlarını açıqlayıb. Toxuculuq istehsalı çoxmilyonluq investisiyalar üçün əsas sahə olaraq təyin olunub.

■ **İngiltərə hökuməti də Qarabağ bölgəsinin texnoloji inkişafına dəstək verməyə hazırdır.** Krallığın Azərbaycandakı səfiri Ceyms Şarp Azərbaycan hökumətinin nümayəndələri ilə bölgədə ”ağıllı şəhərlər”in yaradılmasını müzakirə edib.

■ **İtaliyanın Ansaldo Energia şirkəti dekabr ayında Qarabağ bölgəsindəki dörd yarımstansiyanın inşası məqsədilə avadanlıq tədarükü üçün 6 milyon dollarlıq müqavilə imzalayıb.** Hər birinin gücü 110 kilovat olan yarımstansiyalar erməni işğalından azad edilmiş Ağdam, Füzuli, Qubadlı və Kəlbəcər bölgələrində inşa ediləcək. Avadanlıqların çatdırılması mart ayının sonuna qədər yekunlaşmalı və obyektlər 2021-ci ilin iyun ayının sonunda tikilib istifadəyə verilməlidir.

■ **Macarıstan hökuməti də yenidənqurma işlərinə qoşulmaq istəyir. Ölkənin xarici işlər və ticarət naziri Peter Siyarto ötən həftə Azərbaycanın əmək naziri ilə onlayn görüş keçirib.** Tərəflər macar şirkətlərinin yenidənqurma layihələrinə cəlb edilməsi variantlarını müzakirə ediblər. Siyjartoya görə, “Exim Bank”, artıq azad edilmiş Azərbaycan torpaqlarının bərpasında iştirak etmək niyyətində olan Macarıstan şirkətləri üçün 100 milyon dollar məbləğində kredit xətti açıb. Bundan əlavə, nazirə görə, Macarıstan hökuməti müharibənin nəticələrini aradan qaldırmaq üçün bir vaxtlar işğal olunmuş ərazilərdə minalardan təmizləmə əməliyyatlarının aparılmasına kömək üçün 25 000 avro yardım təklif edib.

■ **İqtisadiyyat naziri Mikayıl Cabbarov ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenbergerlə görüşüb.** ABŞ səfiri Örl Litzenberger Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi münasibətilə təbriklərini çatdırıb, regionda dayanıqlı sülhün bərqərar olmasının önəmini vurğulayıb. Səfir ABŞ şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştiraka hazır olduqlarını qeyd edib, xüsusilə su ehtiyatlarının idarə olunmasında, yol və digər infrastrukturun yaradılmasında, rəqəmsal və innovativ texnologiyalar sahəsində əməkdaşlıqda maraqlarını diqqətə çatdırıb.

Mətbuatda yer alan məlumatlara görə, İsrail, Yaponiya və İran şirkətləri də yenidənqurma layihələrinə investisiya yatırmağa hazırdır. Azərbaycan Energetika Nazirliyi bu yaxınlarda BMT, Aİ, BMT İnkişaf Proqramı, ABŞ Beynəlxalq İnkişaf Agentliyi, Alman Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankının nümayəndələri ilə Qarabağ bölgəsində ”yaşıl enerji zonası” nın yaradılmasını müzakirə edib.

Görünn odur ki, ərazilərin cəlbediciliyi və geniş potensiala malik olması bərpa prosesində maraqlı olan dövlətlərin sayının artacağına zəmin yaradır. Təbii ki, bu məsələdə diqqət çəkiləcək ən önəmli məqam məhz Azərbaycana yaxın dost və tərəfdaş dövlətlərin şirkətlərinə üstünlük veriləcəyinə dair ortada olan iradədir.

✍ ***Azad***

# “Sovetski”də söküntü prosesi nə zaman bərpa ediləcək?



**Yasamal rayonunun “Sovetski” kimi tanınan məhəlləsində bir müddətdir, söküntü işləri dayandırılıb.**

Hafta.az məsələni aydınlaşdırmaq üçün Yasamal Rayon İcra Hakimiyyəti ilə əlaqə saxlayıb. Qurumdan aldığımız məlumata görə, burada bütün işlər mərhələli şəkildə həyata keçirilir. Hazırda isə prosesin ilkin iki mərhələsi uğurla başa çatdırılıb: “Hər bir mərhələ üçün Nazirlər Kabinetinin qərarı olur. Qərarda hansı ünvanların sökülecəyi qeyd ediləcək. Bununla bağlı hələ ki bir qərar yoxdur. Ayrılan büdcənin miqdarı da qərardan sonra müəyyənləşir”.

Qeyd edək ki, Bakı şəhərinin Baş Planına uyğun olaraq 2014-cü ilin əvvəlindən başlayaraq Yasamal rayonunun “Sovetski” adlanan ərazisində söküntü başlayıb. İşlərin birinci mərhələsində 26 hektardan çox sahəni əhatə edən ərazidə 4500-ə yaxın yaşayış və qeyri-yaşayış obyekti dövlət ehtiyacları üçün sakinlərlə əldə edilmiş razılığa əsasən satın alınıb.

2017-ci ilin sonlarına təsadüf edən söküntü işlərinin II mərhələsində isə 13 hektar ərazidə 1920 ev sakinlərlə əldə edilmiş razılığa əsasən satın alınıb. Burada növbəti söküntü işlərinin nə vaxt başlayacağı isə hələlik məlum deyil.

## İqtisadiyyat

# SOCAR-da nələr dəyişəcək?

**Xəbər verdiyimiz kimi, yanvarın 23-də Prezident İlham Əliyev Dövlət Neft Şirkətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında fərman imzalayıb. Fərmana əsasən, SOCAR-ın fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün bu qurumun Müşahidə Şurası formalaşdırılıb. Müşahidə Şurası Azərbaycan Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr də daxil olmaqla, 7 üzvdən ibarətdir. Fərmanla Azərbaycan İnvestisiya Holdinqinə beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, SOCAR-ın mövcud müqavilə öhdəliklərinə riayət olunması şərti ilə onun hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin nəticələrinin diaqnostikasının aparılmasını altı ay müddətində təmin edib nəticəsi barədə Prezidentə məlumat vermək tapşırılıb.**





Bundan başqa, Azərbaycan İnvestisiya Holdinqi diaqnostika başa çatdıqdan sonra onun nəticəsindən asılı olaraq, SOCAR-ın yeni nizamnaməsinin və strukturunun layihəsini iki ay müddətində hazırlayıb razılaşdırılmaq üçün Prezidentə təqdim etməlidir. Maraqlıdır, SOCAR-da Müşahidə Şurasının yaradılmasında məqsəd nədir? Müşahidə Şurası fəaliyyətə başlayandan sonra SOCAR-da nələr dəyişəcək?

■ **Məsələni hafta.az-a şərh edən Dövlət Neft Şirkətinin keçmiş prezidenti Sabit Bağırov bildirib ki, iri şirkətlərdə islahatların həyata keçirilməsi zamanın tələbidir:** "Ümumiyyətlə, burada söhbət təkcə SOCAR-dan getmir. Mən gözləyirəm ki, yaxın zamanlarda digər iri dövlət müəssisələrində - Azərsu, Azərenerji, Azərbaycan Dəmir Yolları, AZAL və digər şirkətlərdə də islahatlar aparılsın. Yəni, 15-ə yaxın iri dövlət müəssisələri var ki, bunların mütləq həm hüquqi status baxımından, həm də idarəetmə baxımından səmərəlilikləri artırılmalıdır. Əslində bu yeni başlanmış proses deyil. Hələ 2016-cı ildə dövlət müəssisələrində səmərəliliyin artırılmasına dair Prezidentin iki fərmanı, Nazirlər Kabinetinin bir neçə qərarları olub. Eyni zamanda, Nazirlər Kabinetinin 2019-cu il qərarında iri dövlət müəssisələrinin səmərəliliyinin artırılması üçün bir çox qeydlər əksini tapıb. Əslində iri dövlət müəssisələri mütləq büdcənin əsas təminatçısı kimi çıxış etməlidirlər. Bizdə isə görürsən ki, iri dövlət müəssisələri subsidiyalar üçün müraciət edirlər, çox rahat şəkildə xarici borclanmaya gedirlər. Bunlar heç biri yaxşı faktlar deyil. Ona görə də mövcud situasiya dəyişməlidir. Bu vəziyyətin dəyişməsinə çox ciddi siqnallar hələ 2014-cü ildə neftin qiymətinin düşməsi, iqtisadiyyatımızda müəyyən problemlərin hiss edilməsi zamanı yaranmışdı. Xatırlayırsınızsa, müəyyən islahatlara da başlanılmışdı. O cümlədən iri dövlət müəssisələrinin səmərəliliyinin artırılması istiqamətində də mühüm qərarlar qəbul olunmuşdu. Amma təəssüflə qeyd etməliyəm ki, həmin qərarların icrası çox ləng gedirdi. Keçən il isə Prezident tərəfindən belə bir fərman oldu ki, İnvestisiya Holdinqi yaradılsın və bütün iri dövlət müəssisələri də bu holdingə tabe edilsin. Yəni, islahat prosesi gedir və hökumət də düşünür ki, iri dövlət müəssisələrinin statusu dəyişməlidir. Bunlar tədricən müasirləşməlidir, açıq səhmdar cəmiyyətlərə çevrilməlidirlər. Mən demirəm ki, ASC-yə çevrilərək dövlət mülkiyyətindən çıxmalıdır. Xeyr, burada dövlətin də payı olmalı və hələlik mühüm paylar dövlətdə saxlanılmalıdır". Ekspert vurğulayıb ki, islahatlar prosesi korporativ idarəetmə prinsiplərinin təmin olunması ilə müşahidə edilməlidir: "Bu nə deməkdir? Korporativ idarəetmənin tələb etdiyi prinsiplərdən biri məhz direktorlar və ya Müşahidə Şurasının yaradılmasıdır. Beynəlxalq təcrübədə bu, Direktorlar Şurası adlanır. Bu şuralarda mütləq müstəqil direktorlar olmalıdır. Yəni, bu direktorlardan bəziləri müstəqil olmalı və icra hakimiyyətini təmsil etməməlidir. Bugünkü SOCAR-ın Müşahidə Şurasının üzvlərinin hamısı icra hakimiyyəti orqanının nümayəndəsidir. Bu, prinsipcə düzgün yanaşma deyildir. Ola bilər ki, birinci mərhələ üçün belə məsləhət bilinib. Gələcəkdə beynəlxalq yanaşmalara yaxınlaşmanı müşahidə edəcəyik. Bu məsələdə dəyişiklik olmalıdır, çünki yarımçıq addımlar o dərəcədə effektli deyil".



**Sabit Bağırov,**
Dövlət Neft Şirkətinin keçmiş prezidenti

İri şirkətlərin idarə olunması prosesində Azərbaycanın daha çox hansı ölkələrin modelinə istinad etməsinə gəlincə, S. Bağırov vurğulayır ki, bu məsələdə diqqətli olmaq vacibdir: "Burada yanaşma elə olmalıdır ki, müəyyən nümunə seçməliyik. Deyək ki, bir və ya iki ölkə. Hansılar ki, Azərbaycana həm miqyas, həm iqtisadiyyatın inkişafı, həm də iqtisadiyyatın struktur quruluşu baxımından yaxındır. Baxmalıyıq ki, həmin ölkələrdə bu proseslər necə gedir? Ona oxşar bir struktur formalaşdırmalıyıq və bu da birdən-birə mümkün olan iş deyildir. Deyək ki, bizə Norveç modeli uyğundur. Bunu birdən-birə etmək olmaz və mərhələli şəkildə addım atmaq lazımdır. Yəni, hədəflər müəyyənləşdirilməli və həmin hədəflər elan olunmalıdır. Yarımçıq addımlar atılanda bəzi suallar ortaya çıxır. Ona görə hədəflər elan edilsə, çox yaxşı olar, suallar da yaranmaz, şayiələr yayılmaz".

■ **Məsələyə münasibət bildirən "Neft" Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə deyir ki, əslində, Prezidentin fərmanında hər şey aydın şəkildə göstərilib:** "Bu fərmanda SOCAR-ın indiyə kimi fəaliyyətinə qiymət verilib və qarşıda duran çağırışlar qeyd olunub. Beynəlxalq öhdəliklərə sadiq qalmaqla bu məqsədlərə çatmaq üçün yeni idarəetmənin zəruriliyi göstərilib. Fərmanla SOCAR-ın idarəedilməsində 2 yeni qurum yaradılıb ki, bunlar da SOCAR-ın Ümumi Yığıncağı və Müşahidə Şurasıdır. SOCAR-ın ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi AR Prezidentinə həvalə edilir.

SOCAR-ı yenidən təşkil etmək və ləğv etmək səlahiyyəti də AR Prezidentinə məxsusdur. Müşahidə Şurasının sədri və 6 üzvünü də dövlət başçısı təyin edir və vəzifələrindən azad edir. SOCAR-ın ümumi yığıncağının idarəçiliyində bütün addımlarını ölkə başçısı ilə razılaşdırmaq şərti ilə Azərbaycan İnvestisiya Holdinqi də iştirak edir. AİH-nin icraçı direktoru Prezidentin sərəncamı ilə həm də SOCAR-ın Müşahidə Şurasının üzvü təyin olunub. AİH-nin SOCAR-ın idarəçiliyində roluna gəlincə, holdinq SOCAR-ın nizamnaməsinin və strukturunun təsdiq edilməsi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, SOCAR-ın illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi, dividend siyasətinin təsdiq edilməsi, qiymətli kağızlarının buraxılması barədə qərar qəbul edilməsi məsələsinə baxacaq".

SOCAR-da Müşahidə Şurasının hansı səlahiyyətlərə malik olmasına gəlincə, ekspert bildirir ki, bu qurum SOCAR-ın uzunmüddətli inkişaf strategiyasını, xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək kimi məsələlərə cavabdeh olacaq: "Bundan başqa, aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri SOCAR-ın aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdləri təsdiq etmək, mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla SOCAR-ın aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılıq vermək, fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları, habelə filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək, korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək, audit və digər komitələrini yaratmaq,

## Qurumun yeni nizamnaməsi və struktur layihəsi iki ay müddətində hazırlanmalıdır

onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək hüququna da malik olacaq. Fərmanla, həmçinin Azərbaycan İnvestisiya Holdinqi 6 ay müddətində SOCAR-ın idarə olunmasına dair korporativ idarəetmə standartlarını təsdiq etməlidir. AİH, həmçinin beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, SOCAR-ın mövcud müqavilə öhdəliklərinə riayət olunması şərti ilə onun hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin nəticələrinin diaqnostika aparılmasını altı ay müddətində təmin etməlidir.

AİH diaqnostika başa çatdıqdan sonra onun nəticəsindən asılı olaraq, SOCAR-ın yeni nizamnaməsinin və strukturunun layihəsini iki ay müddətində hazırlayıb razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. Yəni, bu prosesin yekununu, təqribən, 20 sentyabr 2021-ci ilə proqnoz etmək olar".

Ekspert SOCAR-ın özəlləşdiriləcəyi ilə bağlı fikirlərə də toxunub və bildirib ki, şirkətin özəlləşdirilməsi gündəm mövzusu deyildir: "Bu, gündəmdə olan məsələ deyil, SOCAR özəlləşdirilməyəcək, çünki dövlətin ən yaxşı aktividir. Pul gətirən belə aktivin gəlirliliyini bir başqa ilə niyə bölüşəsən ki? SOCAR hazırkı strukturda 2005-ci ilin dekabrından fəaliyyətə start vermişdi və sonrakı illərdə öz aktivlərini xeyli genişləndirmiş və artırmağa nail olmuşdu. SOCAR 15 ildə Azərbaycan ölçüsündə MEGA səviyyəli bir qurumdan GİGANT səviyyəsinə qədər böyüməyə nail olub. Təbii ki, belə bir şəraitdə onun effektivliyini artırmaq üçün daha təkmil struktur və idarəçilik sistemi gərəkdir. Bunun da əsas müddəalarını Prezident öz fərmanında göstərib. Hesab edirəm ki, biz cari ilin ortasında, tam yeni bir SOCAR-ı müşahidə edə biləcəyik. SOCAR fasiləsiz iş rejimində işləyən bir qurumdur, ona görə də burada transformasiya çox ehtiyatla aparılacaq ki, istehsal prosesləri daha effektiv işləmək iqtidarında olsun".



**İlham Şaban,**
"Neft Araşdırmaları" Mərkəzinin rəhbəri

> "İri dövlət müəssisələri mütləq büdcənin əsas təminatçısı kimi çıxış etməlidirlər. Bizdə isə görürsən ki, iri dövlət müəssisələri subsidiyalar üçün müraciət edirlər.

> "SOCAR özəlləşdirilməyəcək, çünki dövlətin ən yaxşı aktividir. Pul gətirən belə aktivin gəlirliliyini bir başqa ilə niyə bölüşəsən ki?

✍ Sevinc

# XƏBƏR LENTİ

## Yunanıstan Azərbaycan qazı ilə bağlı qanunu təsdiqlədi



**Yunanıstan parlamenti Yunanıstan-Bolqarıstan interkonnektorunun (IGB) tikintisinə icazə verən qanun layihəsini ratifikasiya edib. Qanun layihəsini hakim "Yeni demokratiya" partiyası ilə yanaşı, iki müxalifət partiyası da dəstəkləyib.** Qeyd edək ki, Bolqarıstan artıq IGB ilə bağlı ikitərəfli əməkdaşlıq sazişini təsdiq edib. IGB layihəsi hazırda tikinti mərhələsindədir. Yunanıstan ətraf mühit və energetika naziri Kostas Skrekas bildirib ki, tikintinin 52 faizi başa çatıb və layihənin bu ilin sonunadək hazır olunması gözlənilir. IGB daha sonra Azərbaycan qazını Avropaya nəql edən Trans-Adriatik boru kəməri (TAP) ilə birləşəcək.

## Paşinyanın diplomatik pasportu oğurlanıb



**Keçən il noyabrın 10-da hökumət binasına daxil olan etirazçılar Ermənistan Baş naziri Nikol Paşinyanın diplomatik pasportunu oğurlayıblar.**

Bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Naqdalyan açıqlamasında bildirib. O, qeyd edib ki, noyabrın 10-na keçən gecə Yerevanda Qarabağdakı hərbi əməliyyatların dayandırılması ilə bağlı bəyanatın imzalanmasından narazı olan etirazçılar hökumət, parlament və baş nazirin malikanəsini dağıtdıqdan sonra Paşinyan həmin gün iqamətgahından kompüter, saat, ətriyyat, sürücülük vəsiqəsi və digər əşyaların oğurlandığını" söyləmişdi: "Noyabrın 10-da bir qrup şəxs Ermənistan hökumətinin binasına daxil olaraq Xarici İşlər Nazirliyi tərəfindən həmin gün ləğv edilən 14 diplomatik pasportu oğurlayıb. Ermənistanın baş nazirinə məxsus diplomatik pasport da həmin sənədlərin arasında olub".

## Senat Blinkeni dövlət katibi vəzifəsinə təsdiqləyib



**ABŞ Konqresinin Senatı Entoni Blinkenin Dövlət Departamentinin rəhbəri vəzifəsinə namizədliyini təsdiqləyib.** Səsvermə canlı olaraq ABŞ qanunverici orqanının yuxarı palatasının rəsmi saytında yayımlanıb. 78 senator 58 yaşlı Blinkenin lehinə, 22 senator isə əleyhinə səs verib. Onun yaxın günlərdə and içəcəyi bildirilib.

## Ermənilərin dağıtdığı məktəblərdə tədris necə davam edəcək?



**Ermənilərin Vətən müharibəsi zamanı Gəncəyə atdığı raket atəşləri nəticəsində dağıdılan məktəblərdə tədrisin necə davam edəcəyi açıqlanıb.**

Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Anar Qədimməliyev bildirib ki, raket atəşləri nəticəsində Gəncədə ümumilikdə 9 məktəbə ziyan dəyib. A.Qədimməliyev əlavə edib ki, şəhərdəki 4 və 29 saylı məktəblərə ciddi ziyan dəyib, 4 nömrəli məktəbin bir korpusu tamamilə yararsız vəziyyətdə olduğu üçün təmir ediləcək. Məktəbin digər korpuslarında isə tədris davam etdiriləcək: "29 nömrəli məktəb köhnə olduğu üçün terror aktı nəticəsində ora ciddi ziyan dəyib. Həmin məktəbdə tədris dayandırılıb. Məktəbin 929 şagirdi yaxınlıqda yeni tikilmiş 18 nömrəli məktəbdə tədrisini davam etdirəcək". A.Qədimməliyev qeyd edib ki, digər məktəb binalarında pəncərə şüşələri qırılıb: "Yeddi məktəbin bir neçəsinin pəncərə və çərçivələrinin təmiri bitib, bir neçəsinin təmiri üçün də iş aparılır. Bunlar da fevralın 1-nə qədər tam təmir olunub istifadəyə veriləcək".

## Zibil qutusundan doğranmış qadın meyiti tapıldı

**Bakıda doğranmış qadın meyiti aşkarlanıb. Nəsimi Rayon Prokurorluğundan hafta.az-a verilən məlumata görə, yanvarın 27-də saat 01 radələrində Nəsimi rayonu 4-cü mikrorayon, Əlisgəndər İsgəndərov küçəsində məişət tullantılarının atılması üçün nəzərdə tutulmuş zibil qutularında 4 ədəd kisədə və 1 ədəd sellofan torbada doğranmış vəziyyətdə naməlum qadın meyitinin hissələrinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilib. Faktla bağlı Nəsimi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilib. Hazırda prokurorluq və polis əməkdaşları tərəfindən zərərçəkmişin şəxsiyyətinin müəyyən edilməsi, cinayəti törətmiş şəxs və ya şəxslərin müəyyən edilərək tutulub istintaqa cəlb edilməsi istiqamətində intensiv və zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Müsahib



**Sabir Rüstəmxanlı,**
Xalq şairi, millət vəkili

***Azərbaycan Ordusunun 44 günlük Vətən Müharibəsində əldə etdiyi zəfər milli-vətənpərvərlik ruhuna, qələbə əzmi ilə yazılan şeirlərə, musiqilərə də can verdi. İsbat olundu ki, millətin sənəti, mədəniyyətinin ahəngliyi, siyasəti, birliyi mübarizliyindən ruh alaraq daha çox sevilir. arixin müəyyən dönəmlərində bu millətə qarşı qurulan xarici pusqular, rus hərbinin, zindan maşınlarının törətdiyi qırğınlar, repressiyalar onun azadlıq səsini boğa bilmədi. Fiziki olaraq qolları zəncirlənsə də, millətin illərlə nüvələşən, bərkiyən mənəvi gücünü sarsıda bilmədilər. Azərbaycan Ordusu Qarabağı işğaldan azad etdi. Düşmən üzərində qələbənin bu sirrini də öyrəndik... Bu və ya digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı bəzi məqanlara diqqət çəkib.***

# Nə "KQB", nə dövlət?!

***- Sabir müəllim, Ordumuzun 44 günlük Vətən Müharibəsində əldə etdiyi qələbənin fəlsəfəsində və bu zəfərin ədəbiyyatının rüşeyimində dayanan nədir?***

- Millətin qələbə zəfəri, ilk növbədə, sözdən, ədəbiyyatdan başlayır. O, bütövlükdə mədəniyyətin bütün sahələrini əhatə edir. Burada musiqi də var, rəssamlıq da... Azərbaycanın 1988-1990-cı illərdə ermənilərin torpaq iddiasına cavab olaraq ayağa qalxması, həmin milli azadlıq, müstəqillik hərəkatı 60-70-80-ci illərin ədəbiyyatından can alaraq başlamışdı. Xalqın taleyində ciddi rol oynayan hadisələr həmişə ədəbiyyatdan, müəyyən sənət adamlarının yaradıcılığı ilə kütlənin içərisinə daxil olur, yayılır. Bu, birmənalı olaraq bütün dünyada qəbul olunmuş bir teoremdir. İndiki qələbəyə gələn yolun başlanğıcında da, təbii ki, Azərbaycan dövlətinin apardığı ardıcıl siyasət, diplomatiya ilə yanaşı, böyük mənəvi baza dayanır. Hansı ki, o mənəvi ruh xalqın qələbəyə olan ümidini qırılmaqdan qorudu, Qarabağın ağrıları-acıları, Xocalı unudulmadı və addım-addım bütün dünyaya yayıldı. Beləcə, öz varlığını, fəaliyyətini yalan üzərində quran erməni vandallarının iç üzü açıldı. Bütün erməni eybəcərliyi, cinayətləri, eməni yalanları kitabların, yazıların, jurnalistikanın, ədəbiyyatın xətti ilə dünyaya təqdim olundu. Bu mənada, Qarabağ zəfərində ordu ilə yanaşı, həm də orduya mənəvi güc verən, xalqın ruhunu yüksəklərdə tutan sənət və ədəbiyyatın rolu böyükdür...

***- Erməni vandallığını ifşa edən böyük tarixi, bədii, ədəbi əsərlərin yaradılması üçün nə edilməlidir?***

- Bu işin uğurla aparılması dövlətdən asılıdır. Kino əsərlərinin yaranması, ermənilərin bu 30 il ərzində Azərbaycan ərazilərində törətdikləri işğal faktları, bütün vəhşilikləri, terror və cinayətləri, insanlığa yaraşmayan o dağıdıcılıq əməllərinin qeydə alınıb dünyaya çatdırılması, beynəlxal məhkəmələrə verilməsi, təzminatın tələb olunması kimi məsələlər ciddi və ardıcıl yanaşma tələb edir. Eləcə də dağıdılmış mədəniyyət və tarixi abidələrimizin qeydə alınması, əvvəlki görüntüsü ilə indiki vəziyyətinin müqayisəli şəkildə araşdırılması dövlətin öhdəsinə düşən mühüm işlərdəndir və düşünürəm ki, dövlət bu işləri görür. Təbii ki, bu prosesdə həm də mədəniyyət və incəsənət xadimlərinin, jurnalistlərin, kino xadimlərinin əməyindən də istifadə edilməlidir. Bu işin sırf ədəbi tərəfidir... Hər yazıçı buna öz təxəyyülü, xatirəsi, 30 ildə içində yaşadığı hadisələr fonunda yanaşacaq. Bu onun öz ruhi durumuna bağlıdır. O, öz düşüncələrində hadisələrə yenidən nəzər salıb baxır, qiymət verir və onu ədəbi əsərə çevirir. Məsələn, müğənni Elçin Cəfərov Vətən Müharibəsi ərəfəsində hələ mənim müharibə başlayan vaxt -1992-1993-cü illərdə yazdığım bir şeirə mahnı bəstələdi. Bu mahnı cəbhədə əsgərlər arasında ən məhşur mahnılardan biri idi. Mən o vaxt o şeiri yazanda təsəvvür eləmirdim ki, bu, mahnıya çevriləcək və əsgərlərimizə mənəvi dayaq olacaq. Yaxud, müharibə qurtardı və "Qarabağa dönüş" haqqında bir poema yazdım. O da geniş yayıldı. Zəfərdən sonra ilk yazılan əsər oldu və tənqidçilər ona "Zəfər dastanı" dedilər. Bir il əvvəl hələ savaş bitməmişdi, yazmışdım ki, ümidimiz üzülməyib, hələ savaş davam edir. Şükür ki, o savaşın qələbə ilə bitdiyini də gördüm. İnanıram ki, bu gün, xüsusən uşaqlığı Qarabağda keçmiş, qaçqın həyatı görmüş bir ədəbi nəsl, şairlər, yazıçılar nəsli var. Onlar mütləq azadlıq ruhu ilə yeni əsərlər yazacaqlar. Bizim millət məğlubiyyət duğusuna çətin alışır, onu qəbul etmək istəmir.

Zəfər duyğusu həmişə ədəbiyyatımızı qanadlandırır.

***- Sabir müəllim, tariximizin Milli Azadlıq Hərəkatı səhifəsində ön sırada dayanan şair, siyasətçi, turançı ideyası ilə formalaşan bir ziyalı olaraq, bugünün geosiyasi, ictimai gərginliyi fonunda ortaq nöqtəni necə tapa bilirsiniz? Necə hesab edirsiniz, milli kimliyimizi tam olaraq bərpa etmək üçün hansı kəsrlərimiz aradan qaldırılmalıdır?***

- Sovet dövrü və ondan sonrakı dönəmlərdə xalqın arasında ziyalıya olan inamı həmişə sarsıtmağa çalışıblar. O gün televiziya verilişlərinin birinə baxıram, deyirlər ki, filankəslər, adlarını da çəkirlər, "KQB"nin sifarişi ilə meydana gəliblər. Halbuki bu insanların "KQB" ilə heç bir əlaqəsi yoxdur. Birinci gündən demişdim ki, kəfənimi boğazıma doladım, gedirəm meydana... Yəni bu ideya ilə, bu inamla gedirsən. Nə "KQB", nə dövlət?! O vaxt dövlət var idi ki?.. Dövlət meydandan asılı idi. Meydanın hakimi biz idik, ölkənin də hakimi meydan idi. Ona görə də ziyalının rolunu kiçiltmək, xalqın rolunu kiçiltmək olmaz. Xalqa hörmət və inam bəsləmək lazımdır.

> *"Millətin qələbə zəfəri, ilk növbədə, sözdən, ədəbiyyatdan başlayır*

Biz o meydan hərəkatına ədəbiyyatdan, sözdən gəlmişdik. Dərnəklərdən, keçdiyimiz yollardan, Bakının zavod və fabriklərdə apardığımız görüşlərdən gəlmişdik. Bu 30 ildə millətə bir inamsızlıq toxumu səpməyə çalışdılar. Bu millətə "Unudun, Qarabağı yaddan çıxarın, Qarabağı dilə gətirmək lazım deyil" fikrini təlqin elədilər. Xalq göstərdi ki, heç nəyi unutmayıb, onun mənəvi gücü yerindədir. Stalin və ondansonrakılar milli kimliyimizi dəyişdirmək üçün çox adlar fikirləşdilər. Həyat göstərdi ki, Azərbaycanda türk kimliyi həlledicidir. O, bir türkdür və onun yanında dayanan qardaş Türkiyə var. Türk kimliyinin, Türk-İslam Birliyinin bir qanadı da Pakistandır. O da türk sevgisi ilə bu proseslərə qatılmışdı. Bunu heç nə ilə millətə unutdurmaq olmaz. Eyni zamanda, bunu sandığa qoyub saxlamaq da mümkün deyil. Türk kimliyi daim bizim həyatımızda zənginləşməlidir. Onun tarixi, qol-qanadı öyrədilməlidir, təbliğ olunmaldır. Cavan nəsil öz tarixini, keçmişini bilməlidir. Erməni özünün uydurma tarixi ilə yeni nəsil böyüdür. Biz isə heç nə uydurmadan bizim olanı övladlarımıza öyrətsək, bu, uşaqlarımızın qəhrəmanlıq ruhu ilə böyüməsinə bəs edər.

***- Bizim zəngin tariximiz var. Zaman-zaman işğala məruz qalmışıq və bu gün 4 tərəfdən öz torpaqlarımızla sərhəddəyik, bunun özü çox şeyi deyir. Görünur, şairlərimiz, ziyalılarımız, ədəbiyyatımız siyasətin o çirkin gərdişinə təsir etmək gücünü əldə edə bilməyib...***

- Mən şəxsən elə düşünmürəm. Məsələn, neçə ildir partiya sədriyəm. Bizim nəsil, hətta sovet dövründə yaranmış o ədəbiyyatın özünün alt qatındakı milli ruhu duyurduq, hiss edirdik. Ondan əvvəl məsələn, Mirzə Fətəli Axundzadədən başlanan yeni Azərbaycan ədəbiyyatı var idi. Mirzə Cəlil, Sabir, sonra sovet dövrü ədəbiyyatında yer alan Ordubadinin romanları, Cənubi Azərbaycanla bağlı Mirzə İbrahimovun "Gələcək gün" romanı var idi. Nədənsə, "Gələcək gün"ü dərsliklərdən çıxartdılar, halbuki o, Azərbaycanın bütövlük duyğusunu korşalmağa qoymayan bir əsər idi. O dövrlərdə Səməd Vurğunun, baxmayaraq ki, Stalinlə, Moskva ilə bağlı çox yazıları olub, onun həm də "Yandırılan kitablar" şeiri, "Aslan Qayası" poeması var idi. Eləcə də Süleyman Rüstəmin "Cənub həsrəti" şeirlər kitabı, Balaş Azəroğlunun, Zöhrab Tahirin, Bəxtiyar Vahabzadənin və başqa ədiblərin şeirləri var idi ki, Azərbaycanın milli siyasəti bunların içindən keçib. Bu milli siyasət Moskvadan, Avropadan gələn kommunist ideologiyasını üstələdi. Onu Azərbaycan zehnindən silib atdı. Ədəbiyyatçılar bundan artıq neyləməlidirlər?..

***- Mübarizlik ruhlu, milli yaddaşımızı oyadan əsərlər nə zaman yaranır? Qələbədə, yoxsa ondan əvvəl?***

- Qeyd etdiyim kimi, bizim millətə məğlubiyyət duyğusundan yazmaq çətindir. Bütün bu məsələlər istedada bağldır, burada nə məğlubiyyət, nə də zəfər əsas deyil. Yazı -pozu işində əsas, onu yazanın istedadı milli ruhudur.

Məsələn,1905-1907-ci illər erməni-müsəlman qırğınına dair Ordubadinin 1911-ci ildə çap etdirdiyi "Qanlı sənələr" kitabı o dövrün müxbirlərinin toplayaraq ona göndərdikləri 254 məktub əsasında yazılıb. Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" adı altında çap edilən "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri" əsəri həm XX əsrin birinci onilliyində xalqımızın başına gətirilən faciələrin miqyasını açıb göstərmək, həm də Dağlıq Qarabağ probleminin tarixi köklərinin mahiyyətini öyrənmək baxımından qiymətli mənbə hesab olunur. Qılman İlkinin, Manaf Cüleymanovun o dövrlə bağlı kitablarında müəyyən faktlar göstərilib. Həmin faciələri göstərən böyük əsərlər yazılmayıb. İndi hesab edirəm ki, bütün bu məsələlər yazılmalıdır.

***- Sabir müəllim, təbii ki, ədiblərimiz, şairlərimiz öz sözlərini kifayət qədər deyiblər. Torpaqlarımızı əsarətə alan, repressiyaya məruz qoyulan millətin güclü diplomatiyasının yaranmasına təsir edə bilməyib. Əvvəlki sualımda ədəbiyyatımızın düşmən siyasətinin qarşısında hansı səbəbdən sədd yarada bilməməsi səbəblərinə toxunmaq istəmişdim.***

- Təəssüf ki, indi də diplomatiyada, idarəçilik sistemində Azərbaycan milli ideologiyasının şinelindən çıxmayan və yaxud Azərbaycan məktəbini qurtarmayan, kənar təsirlərlə yetişən müəyyən təbəqə var. O təbəqə heç vaxt bizim dediyimiz, o əsl milli ruhu hiss eləmir. Əslində o adamların diplomatiyada, siyasətdə olmaları ziyan vurur. Bunlar daim xarici ölkələrlə təmasdadırlar, onlara anlatmalıdırlar, deməlidirlər. Bu mənada gələcək nəsil bu iki mədəniyyətin ikisinə də vaqif olsun, ikisinə də yiyələsin. Bir yandan Azərbayacan mədəniyyəti, bir yandan dünya mədəniyyətini bilsin. Eyni zamanda öz kökümüzdən heç vaxt qopmasın.

***- Rusiya sülhməramlılarının Qarabağa gəlişini və regionda separatizmin tam təmizlənmədiyini nəzərə alsaq, hələ ki, suverenliyimiz tam bərpa olunmayıb. Bu fonda Milli Məclis əsas milli məqsəd və ideyalarımızla bağlı nə dərəcədə cəsarətli, cərəyan edən proseslərə adekvat çıxış edə bilir?***

- Milli Məclis ölçü-biçi daxilində həmişə öz sözünü deyib. Şəxsən Rusiya sülhməramlılarının əraziyə gəlməsinə böyük faciə kimi yanaşmıram. Əlbəttə, arzulamazdım gəlsinlər, amma bu proses baş verib. Şübhəsiz ki, ordumuza imkan verilsəydi, gedib Yerevana da çıxardı, amma sonrası necə olacaqdı? Hər halda dünya, ermənipərəst qüvvələr bu məsələni sakit buraxmayacaqdılar. Azərbaycanın hansı təzyiqlə üzləşəcəyi, Dağlıq Qarabağla bağlı yaranan Minsk Qrupu dövlətlərinin hansı addımları atacağını hesablamaq lazım idi. Ona görə də regionda uğurlu gediş etmək üçün təkcə Rusiyanı, onun sülhməramlılarını söymək yetərli deyildir.

Biz Azərbaycanın bu haqlı müharibəsində Avropa ölkələrindən və Rusiyadan fərqli münasibət gördük. Bunu dəyərləndirib, götür-qoy eləmədən, elə "Niyə rus gəldi?" demək də düzgün deyildir.

Otuz ildir ermənilər Azərbaycanda özlərindən min cür yalan uydurublar. İndi bunların yalan olduğunu dünyaya göstərə bilirik. İndiki mərhələdə bir barış olmalıdır. Bu prosesdə də Rusiya ortaya girib və İnşallah, məsələnin həllinə nail olacağıq. Ona görə də Rusiya sühməramlılarına da təmkinlə, sakit yanaşmaq lazımdır. Bütün sərhəd Azərbaycanın nəzarətinə keçəcək və hər şey yaxşı olacaq.

***- Sabir müəllim, sizin "Millətim" şeiriniz var, hansı ki, Vətən Müharibəsi ərəfəsində dəfələrlə dinlədik. Millətimiz düşmənlə hesabını tam kəsə bildimi? Bütövlükdə qarşımızda hansı vəzifələr durur?***

- Biz düşmənlə hesabı kəsdik, sərhəd, torpaq bütövlüyümüzü də bərpa etdik. Dağlıq Qarabağda qalan ermənilər, əslində, bizim vətəndaşlardır. Bu bizə imkan verir sabah deyək ki, bizim də Ermənistandan çıxarılan əhalimiz öz yerlərinə qaytarılsın.

Monorespublika yaratmaq niyyətində də deyilik. Ermənilərin orada qalmasından istifadə edərək, dünyaya milli xarakterimizi daha yaxşı göstərmək istəyirik. Bəlkə də bu, bir qədər təskinlikdir, bəlkə də ərazilərimiz tam təmizlənsəydi, daha başqa cür danışa bilərdim. Hər halda bu da bir faciə deyildir. Hesab edirəm, tam maksimalist olub deyə bilərik ki, Ermənistan da bizimdir, İrəvan da bizimdir. Dünyadakı reallıqları isə nəzərə almaq lazımdır. Əlimizdə olan və mövcud dünya şərtlərini nəzərə alsaq, öz məqsədlərimizi yerinə yetirmişik. Müəyyən işlər qalır, onlar da görüləcək. Boşalan torpaqlarımızı bərpa edənə qədər, Qarabağda qalan o müəyyən tör-töküntülər də oradan təmizlənəcək.

Onu da deyim ki, qələbədən sonra "Millətəm" mahnısından heç də geri qalmayan ikinci bir mahnını yazmışıq, İnşallah, bu günlərdə ortaya çıxacaq.

*✍ Tahirə Qafarlı*

---

QƏHRƏMAN DÖYÜŞÇÜLƏRİMİZİ TANIYAQ

# Laçını görməyən laçınlı



## ŞƏHİD TURAL RƏHİMLİ

***Dünya əhalisinin yüksək əksəriyyəti üçün müqəddəs olan ortaq məhfumlar vardır. Torpaq, dil, din və Vətən kimi... İllər ötüb-keçsə, nəsillər dəyişsə belə, Vətənə olan sevgi əsla tükənmir. Üzərində dayandığımız bu torpaqlar keçmişdən günümüzə yüzlərlə şəhidin bizə əmanətidir.***

Bütün şəhidləri birləşdirən ortaq hekayələri var, onların hər biri seçilmiş şəxslərdir. Onları tanımaq və tanıtmaq isə hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Bu gün sizlərə əslən Laçından olan, o torpaqları görmədən sevən kəşfiyyatçı əsgər, qəhrəman şəhid Tural Rəhimli haqqında bəhs edəcəyik.

Tural Gəray oğlu Rəhimli 2001-ci il oktyabrın 27-də Abşeron rayonunun Xırdalan şəhərində anadan olmuşdur. Əslən Laçın rayonunun Korcabulaq kəndindən olan Tural 2007-ci ildə rayonun 45 saylı tam orta məktəbində təhsil almağa başlamış və həmin təhsil müəssisəsinin məzunu olmuşdur. Məktəb vaxtı Vətənə bağlılığı, Bayrağa sevgisi ilə hər kəsdən fərqlənirdi. Tural Laçın həsrəti ilə yaşayırdı. Onu tanıyanlar bu sevgini yaxşı bilirdi. 2019-cu il oktyabrın 28-də hərbi xidmətə güləgülə bayrağa bükülü vəziyyətdə yola düşən Tural elə ilk günlərdən könülü şəkildə ön cəbhədə xidmət etməyə başlayır. Kəşfiyyat bölüyündə olan Tural Rəhimli dostları və ailəsi ilə danışdığında deyirdi: "Şəhid olsam ağlamayın, Laçını alacağıq, İnşallah".



***Prezidentin sərəncamı ilə şəhid Tural Rəhimli ölümündən sonra "Suqovuşan" və "Vətən Uğrunda" medalları ilə təltif olunub. Bu müddət ərzində şəhidin ailəsinin ehtiyacları və qayğıları ilə Heydər Əliyev Fondu və YAŞAT Fondu yaxından maraqlanıb.***

İkinci Qarabağ müharibəsi başlayan gündən igidlik göstərən cəsur kəşfiyyatçı Tural 1 oktyabr səhər saatlarında atasına zəng edərək, "Hər şey yaxşıdır Torpaqlarımızı yağı düşməndən azad edirik. Şəhid olsam ağlamayın", - dedi. Elə həmin gün günorta saatlarında, Suqovuşan uğrunda gedən döyüşlərdə böyük şücaət göstərərək şəhidlik zirvəsinə ucalır...

Hafta.az qəhrəman Şəhidin ailəsi və yaxınları ilə həmsöhbət oldu. Onlar öz xatirələrini bizimlə bölüşdülər.

■ **İlk öncə Turalın əsgər yoldaşı onun haqqında danışarkən dedi:** "O, bir qəhrəman idi, düşmən üzərinə gözündə heç bir qorxu olmadan irəliləyirdi. Allah bütün şəhidlərimizə rəhmət etsin. Məkanları cənnətdir".

■ **Anası Süsən Rəhimli də oğlunun gənc ömrünə sığdırdığı sonsuz qəhrəmanlıqdan söz açdı.**

O dedi ki, Tural anadan olandan qeyri-adi uşaq idi. Vətənpərvərliyi ilə hamıdan seçilirdi: "Oxumaqla arası yox idi. Elə uşaq vaxtlarından "Mən əsgər olacağam", - deyirdi. Balaca olanda bir dəfə atasına dedi ki, Rusiya vətəndaşlığı alsın. Sonra isə Laçına gedib oraları görsün. Bunun başqa yolu yoxdur...".

Süsən xanım bildirir ki, Tural bayrağımıza bükülüb yollandı xidmətinə, o bayrağın uğrunda can verib, ona sarılıb şanlı qayıdışını etdi:

"Evdən çıxanda Şəxsiyyət Vəsiqəsini tapa bilmədim. Söylədi ki, tapıb arxamca gətirərsiniz. Əsgərliyə getməyi də onun üçün bir toy-bayram idi. Həmin gün, ancaq bayrağa büründü. Onu bir an belə çiynindən yerə qoymadı. Gedəndə ağlamırdım, ancaq mənə ağır idi.

Yenə də balamı gülə-gülə yola saldım ki, narahat qalmasın. Sonra yuxuda gördüm ki, müharibə başlayıb və Tural şəhid olub. Yuxularımdan qorxurdum. Qəlbimin dərinliyində məni narahat edirdi".

Ana söylədi ki, bir il Turalı görə bilmədik. Nə o məzuniyyətə gələ bildi, nə də biz getdik yanına. Uşaq vaxtı mənə bir məktub yazmışdı: "Ana, səni çox sevirəm. Heç vaxt da səndən küsməyəcəyəm". "Gələcəksən?" sualını verəndə, heç vaxt "Gələcəyəm" demirdi. Elə bil ürəyinə damışdı. Getməmişdən əvvəl, evdə divanda oturub dedi ki, "Əgər şəhid olsam, ağlama. Şəhidlik zirvəsi hər adama qismət olmur".

■ **Daha sonra şəhidimizin nənəsi Gülbəz Məmmədova da saytımıza danışdı. O, Turalın şəhid olacağını ilk gündən bildiyini dedi. Daha sonra illəröncə 10 yaşlı balaca Turalla bir söhbətini xatıdladı...**

*- Nənə, çox "Laçın-Laçın" deyirsən. Gedəcəyəm ora və şəhid olacağam.*

*- Bala, niyə elə deyirsən? Denən ki, Laçını alıb, qayıdıb gəlib səni də aparacağam ora.*

*- Bilmək olmaz. Şəhid olacağam və məni bayrağa büküb dəfn edəcəklər. Onda sən mənimlə fəxr edəcəksən.*

*Qismət belə imiş. Allah onların qanını yerdə qoymadı.*

■ **Şəhidin atası Gəray Rəhimli isə oğlunun Vətən sevgisini bu sözlərlə ifadə etdi:** "Tural dünyaya gələn gündən bəri keçən 18 il 18 gün kimi gəlir mənə. Əsgərliyə gedəndə andiçmə mərasimi noyabrın 9-da oldu. Biz də iştirak etdik. Kəşfiyyat bölüyündə xidmət edirdi. Hərbi hissədə 41 nömrəli otaqda yatırdı. Laçının seriyası idi 41. Onun telefon nömrəsi də 41 rəqəmi ilə başlayırdı...".

Rahat uyu, qəhrəman Şəhid, bu gün Sənin Laçınında Sənin bayrağın dalğalanır. Uğrunda can verdiyin üçrəngli Bayrağımız sizlər var olduqca daim zirvələrdə dalğalanacaq.

**Allah rəhmət etsin!**

*✍ Sabir Baxşalıyev*

---

## Proqnoz

**Amerika Neft İnstitutunun (API) proqnozlarına görə, ABŞ-da kommersiya neft ehtiyatları ötən həftə azalıb. Ötən həftə ABŞ-ın neft ehtiyatları 5,27 mln. barel azalaraq 484,71 mln. barelə yaxın olub.**

Qeyd edək ki, analitiklər ABŞ neft ehtiyatlarının 603 min barel artacağını gözləyirdi. Xatırladaq ki, ABŞ-ın neft ehtiyatları haqqında məlumatlar dünya bazarında olan "qara qızıl"ın qiymətinə əhəmiyyətli dərəcədə təsir edir.

## Sosial

### Dəyişən qiymətlər

**Əvvəlcə onu deyək ki, satışda olan su filtrlərinin qiyməti 400 manatdan başlayaraq dəyişir. Ən bahalı qurğuların qiyməti 2000-2500 manat civarındadır.**

İlk olaraq bu sahədə fəaliyyət göstərən "Dinamik Ocean" şirkəti ilə əlaqə saxladıq. Şirkətin rəhbər üzvünün sözlərinə görə, su filtrindən istifadə edərək istehlakçı təmizlənmiş, saf su əldə etməyə çalışır. Bu zaman onların növləri arasındakı fərqlərlə bağlı suallar ortaya çıxır.

"Bəzi qurğularda "kartric"lər bir aydan bir dəyişdirildiyi halda, bəziləri altı, səkkiz aydan bir dəyişdirilir. Təbii ki, suyun codluğu və duzluluq dərəcəsi bu müddətə təsir göstərir. Göstərilən faktor fərqli qiymət aralığını formalaşdıran səbəblərdən sadəcə biridir. Həqiqətən bənzər mexanizmlə çalışan qurğular arasında fərqli qiymət aralığının səbələri bir çox fərqləndirici meyara əsaslanır. Bu meyarlar aşağıdakılardır:

- Filtrasiya metodu, membranın və digər kartriclərin keyfiyyəti, duz və ağır metal birləşmələri tutma dərəcəsi, PH səviyyəsi, minerallaşdırma səviyyəsi, aktiv karbon kartricindəki yod səviyyəsi, qurğunun texnoloji modifikasiyası, məhsuldarlığı, suyun keyfiyyətinə nəzarət edən idarəetmə sistemi, aşağı təzyiqdə işləmə qabiliyyəti, filtrlərin davametmə müddəti və davamlılığı, illik baxım xərcləri, qurğunun səssizliyi, xarici görünüşü, mətbəxdə yertutma həcmi, istehsalçı şirkətin keyfiyyət standartları və onun təsdiqedici sənədləri, qida uyğunluq sertifikatı, zəmanət müddəti, servis xidmətinin keyfiyyəti, müştəri məmnuniyyəti və s".

*"Su həyatdır", - deyirlər. Elə bu səbəbdən də insanları teztez narahat edən başlıca məqamlardan biri içməli suyun tərkibidir. Xüsusilə də qapı-qapı gəzib su filtrlərinin satışı ilə məşğul olan şirkətlərin əməkdaşlarının keçirdikləri eksperimentlər əhalinin narazılığını bir qədər də artırır. Bəs görəsən, mənzillərə verilən içməli suyun tərkibi həqiqətən göstərildiyi qədər təhlükəlidirmi? Su filtrlərindən istifadə nə dərəcədə vacibdir? Onların qiymətləri, aralarındakı fərq nədir? Filtrlərin dəyişilməsi zamanı vətəndaş nə cür aldadılır? Hafta.az yaranmış suallar ətrafında araşdırma aparıb.*

# SU FİLTRLƏRİ

## Ekoloji təmizlik, yoxsa?..



Digər bir su filtrı şirkətindən isə deyildi ki, 6 filtrli, saatda 8 litr su verən aparatın qiyməti 580 manatdır. Bir sutka ərzində 200 litr təmizləmiş su verir. Ödənişi həm nağd, həm də kreditlə həyata keçirmək mümkündür. Aparatın digər şirkətlərə nisbətən ucuz olduğunu isə satışın online qaydada həyata keçirildiyini söyləyərək əsas gətirdilər. Satış əməkdaşının sözlərinə görə, daha bahalı aparatların fərqi daha çox su təmizləyə bilməsidir. Bu tip böyük aparatlar evlər üçün bir qədər artıq hesab edilir:

"Satılan filtr aparatı zəmanətli və sertifikatlıdır. Hər 6 aydan bir isə aparatın filtri dəyişilir. Filtrlərin dəyişilməsi birlikdə 50 manatdır. Və bütün bu proseslər şirkət tərəfindən həyata keçirilir. Başqa yerdən filtr dəyişmə xidməti axtarmağa ehtiyac olmur. Beləliklə, müştərilər dələduzluq halları ilə qarşılaşmır".

Əldə etdiyimiz məlumata əsasən bəzən filtrlərin dəyişdirilməsinin qiyməti 150 manata qədər yüksəlir.

### Hüquqşünas rəyi

**Hər iki firmanın təmsilçisi söyləyir ki, bu işlə kor-korana məşğul olanlar müştərilərini rahatlıqla aldada bilirlər. Maraqlısı isə budur ki, çox vaxt alıcı aldadıldığını bilmir.** Belə ki, müştəri bir müddət sonra qurğunun filtrlərini dəyişdirmək üçün müəyyən yerlərə müraciət edir. Onlar da həmin detalı saxtası ilə əvəzləyir. Bəs görəsən, bu kimi hallarla qarşılaşan istehlakçı nə etməli?

■ **Mövzunun hüquqi tərəfləri ilə bağlı hüquqşünas Xəyal Bəşirovun fikirlərini öyrəndik. O deyir ki, su filtrlərinin alınması zamanı, yaqin ki, alıcı ilə şirkət arasında anlaşma olur. Bu da müştəriyə gələcəkdə ehtiyat hissələrinin satışı və digər xidmətlərin göstərilməsi ilə bağlıdır:**

"Şirkət su filtrlərini gətirirsə və müştəri həmin filtrin ehtiyat hissələrini başqa yerdən əldə edə bilmirsə, bu zaman şirkətin əlinə sui-istifadə imkanı düşür. Buna görə də vətəndaş ilkin olaraq həmin su filtri şirkəti ilə mütləq şəkildə yazılı müqavilə bağlamalıdır".

X.Bəşirov onu da qeyd etdi ki, ola bilsin, şirkətlə müştəri arasında yazılı razılaşma var, lakin həmin şirkət müştəriyə keyfiyyətsiz məhsul verir. Bu halda istehlakçıların hüquqları pozulmuş hesab olunur:

"Vətəndaşlar ilkin olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlakçıların Hüquqlarının Müdafiəsi üzrə Xidmətə müraciət edə bilərlər. Onu da deyim ki, istehlakçıların hüquqları müxtəlif şəkildə pozula bilər. Bu, sağlamlığa zərər vura biləcək bir pozuntu olduğu üçün bu mövzuya daha ciddi yanaşılmalıdır. Hər bir halda məsələ ilk olaraq araşdırılır. Əgər belə hala rast gəlinməsə, o halda inzibati xəta hesab edilir. Bu zaman həmin hüquqi şəxs barəsində inzibati məsuliyyət yaranır. Sağlamlığa zərər yetirəcək hal aşkar edilsəydi, onda cinayət məsuliyyəti yaranardı. Bununla bağlı Cinayət Məcəlləsində azadlıqdan məhrumetmə cəzası belə nəzərdə tutulur. Digər halda isə firma və şirkətə müəyyən məbləğdə pul cəzası tətbiq edilir.

### Suyun tərkibi

■ **Suyun tərkibi ilə bağlı olaraq mütəxəssis rəyini də öyrəndik. Ekoloq Əvər Əliyev söylədi ki, Bakıya gələn suların böyük əksəriyyəti şollar və Oğuz-Qəbələ - Böyük Qafqazın sularıdır:**

"Böyük Qafqaz, əsasən, karbontalı suxurlardan ibarət olduğu üçün suyun tərkibində karbonat çöküntüləri çoxluq təşkil edir. Ümumilikdə bunun miqdarı Qafqazın artezianlarından gələn sularda 45-46 milliqram litrdir. Bizə gələn suyu təmizləyən qurğular sayəsində bu göstəricini 16-17% endirmək mümkün olub".

Mütəxəssis qeyd edir ki, Kürün suyunda da bir problem var. Ora uzun müddət Azərbaycanın kənd təsərrüfatı zonasıdır. Buna görə də suyun tərkibində fosforlu birləşmələr belə var. Bundan başqa, sərbəst tədqiqatçıların sözlərinə görə, burada tullantılara da rast gəlinir.

Ekoloqun sözlərinə görə, biz ortasəviyyəli su ilə təmin edilirik:

"Bakı kimi böyük şəhəri içməli su ilə təmin etmək elə də asan məsələ deyil. Biz suyu normal işlədə bilmirik. Üç yüz km məsafədən su gətirib onunla ağac sulayıb, maşın yuyuruq. Halbuki hər il metro sularının dənizə axıdılması üçün üç yüz min manat pul sərf edirik. İndi metrodan çıxan sular zamanında artezian suları kimi istifadə olunub. Bu suları çıxarıb müəyyən işlərdə istifadə etmək olar. Bu sularda duzluluq da çox deyil. Tam olaraq içməyə yararlı sulardır".

### "Azərsu"dan açıqlama

■ **Məsələyə son nöqtəni isə, Azərsu Açıq Səhmdar Cəmiyyətinin(ASC) sözçüsü Anar Cəbrayıllı qoydu. O bildirdi ki, bu gün paytaxt Bakıda, eləcə də Azərbaycanda əhaliyə verilən su içməli su standartlarına tam uyğundur və bu, daimi nəzarətdədir:**

"Suyun keyfiyyət göstəricilərinə Azərsu ilə yanaşı, Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən dövlət nəzarəti həyata keçirilir. Onlar da müəyyən olunmuş ərazilərdən, ünvanlardan, anbarlardan, ictimai iaşə obyektlərində yoxlamalar həyata keçirirlər. "Azərsu" ASC-nin mərkəzi laboratoriyalarında ən son texnologiyaya əsaslanan, suyun keyfiyyətini yoxlayan cihazlardan istifadə olunur. Bu da suyun keyfiyyətinin tam dəqiqliklə öyrənilməsinə imkan verir".

A.Cəbrayıllı suyun tərkibinin dəyişməsinə mənfi təsir göstərən amilləri də sadaladı. Sən demə, bina daxili kommunikasiya xətlərinin köhnə olması, bina damlarında çənlərdən istifadə edilməsi, suyun keyfiyyətinə müəyyən təsirlər edə bilir:

"Burada, əsasən, söhbət suyun fiziki göstəricilərindən, bulanıqlığından gedir. Boru köhnə olarsa təbiidir ki, korreziyaya uğramış hissələrin rəngi çıxa bilər. Əgər polad borudursa, dəmir qırıqları ora gələ bilər. Bəzən də damlara çənlər quraşdırılır. Uzun müddət ağzı açıq qalan çənlərdən də su istifadə edilməsi tövsiyə edilmir. Keyfiyyət standartlarına görə, su anbarları və çənləri ildə ən azı bir dəfə yuyulmalıdır. "Azərsu" ASC, Gigiyena və Epidemiologiya Mərkəzi ilə razılaşdırılmış qrafik əsasında mərkəzi məhəllədaxili anbarları ildə, ən azı, 2 dəfə yuyub-təmizləyir. Araşdırmalarımızdan belə məlum olub ki, elə yenitikililər var ki, onların bir qisminin anbarları neçə illərdir yuyulmur. Bu da suyun keyfiyyətinə mənfi təsir göstərir".

> *Şirkət su filtrlərini gətirirsə və müştəri həmin filtrin ehtiyat hissələrini başqa yerdən əldə edə bilmirsə, bu zaman şirkətin əlinə sui-istifadə imkanı düşür.*

> *Bakı kimi böyük şəhəri içməli su ilə təmin etmək elə də asan məsələ deyil. Biz suyu normal işlədə bilmirik.*

> *Suyun tərkibində həll olmuş duzların yolverilən həddi 1000 ppm-ə qədərdir. Abşeron yarımadasında verilən suyun tərkibində bu göstərici isə yarıdan aşağıdır.*

Qurum sözçüsü istismar müddəti başa çatan boruların da suyu çirkləndirə bilməsinə münasibətini bildirdi:

"Bu gün Bakıda mövcud olan su xətlərinin bir hissəsi, artıq istismar müddətini bitirmişdir. Eyni zamanda, Bakıətrafı ərazilərdə, yeni salınmış yaşayış massivlərində şəbəkələrin bir hissəsi vətəndaşlar tərəfindən normalara uyğun olmadan çəkilib. Bunlar da bəzi hallarda fasilələr olduğu zaman suyun keyfiyyətinə mənfi təsir edə bilər. Əgər xətdə bir sızma varsa, su dayandıqda kənara sızmış su torpaqla birgə boruya daxil ola, suyun fiziki çirklənməsinə zəmin yarada bilər. "Azərsu" Səhmdar Cəmiyyəti ötən müddətdə 5000-dən çox köhnə su xətlərini yeniləyib. Hansı ki, bu xətlər sovet dövründən qalmadır".

"Azərsu" ASC-nin rəsmisi sonda su filtlərinin satışı zamanı vətəndaşların necə aldadıldığı məsələsinə də toxundu. Dedi ki, bu gün əsasən gecə saatlarında qapıları döyüb, heç bir təhsili olmadan su filtrı satan bəylər və xanımlar insanlara yanlış məlumat verməklə öz məhsullarını satmağa cəhd edirlər:

"TDS metr var ki, o, suyun tərkibində ümumi həll olmuş duzların miqdarını ölçür. Göstərici 300-400 ppm gələndə deyirlər ki, "Sizin suyunuz çirklidir. 100-ə qədər yolverilləndir. Siz filtr qoymasanız ziyandır". Bu məlumatların hər biri əsassızdır. Bunu Səhiyyə Nazirliyi ilə də təsdiqləmək olar. Suyun tərkibində həll olmuş duzların yolverilən həddi 1000 ppm-ə qədərdir. Abşeron yarımadasında verilən suyun tərkibində bu göstərici isə yarıdan aşağıdır. Ona görə də suyun istifadəsində heç bir problem yoxdur".



**Anar Cəbrayıllı,**
"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sözçüsü

Təmiz su, sağlam həyatın başlanğıcıdır. Buna görə də içdiyimiz suyun tərkibini bilmək vacib haldır. Vəziyyəti dəyərləndirib qərar vermək isə öz ixtiyarındadır.

*✍ Banu*
*Mövzuya qayıdacağıq.*

## Proqnoz

**2021-ci ildə qlobal təbii qaz tələbatının artacağı gözlənilir. Çu proqnozla Beynəlxalq Enerji Agentliyi (IEA) çıxış edib.**




Agentliyin proqnozuna görə, cari ildə qlobal qaz tələbatı keçən ilə nisbətən 110 milyard kubmetr artacaq. Qaz tələbatında cari ildə 2,8 faiz artım gözlənilsə də, iqtisadi artımla bağlı qeyri-müəyyənliklər səbəbindən təbii qaz bazarı hələ də kövrəkdir. Xüsusilə 2020-ci ilin dekabr ayından etibarən soyuq hava şəraitinin təsiri ilə təbii qaza olan tələbat artmağa başlayıb. İlin əvvəlində Asiya və Avropada havaların soyuq keçməsi və azalan qaz ehtiyatları səbəbindən təbii qaz qiymətləri yüksəlib. Belə ki, Asiya bazarında maye qaz (LNG) qiymətləri 2011-ci ildə baş verən Fukuşima nüvə qəzasından sonra ən yüksək səviyyəyə çatıb.

Buna baxmayaraq, tələbatdakı artımın qısamüddətli olacağı və qlobal qaz bazarındakı qeyri-müəyyənliklərin tələbata təsir göstərməkdə davam edəcəyi gözlənilir. Qlobal təbii qaz tələbatının bu il 2020-ci ilə nisbətən 2,8 faiz (110 milyard kubmetr) artaraq 4,02 trilyon kubmetr olacağı proqnozlaşdırılır. Gözlənilən tələbat artımı 2009-cu il maliyyə böhranından sonra 2010-cu ildə yaşanan 7,5 faizlik artımdan xeyli aşağıdadır. Afrika, Asiya, Cənubi Amerika və Yaxın Şərqdəki inkişaf etməkdə olan bazarların builki qaz tələbatında əsas rol oynayacağı və artımda 70 faizlik paya sahib olacağı proqnozlaşdırılır.

## BİR CÜMLƏ-BİR XƏBƏR

■ Milli Məclisin yaz sessiyasında "Təhsil kreditləri haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq, bu, parlamentin yaz sessiyasının qanunvericilik işləri planına daxil edilib.

■ Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Nəsimi Rayon Polis İdarəsi 21-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində rayon ərazisindəki evlərin birindən 40 000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Sumqayıt şəhər sakini S.Məmmədova saxlanılıb.

■ Goranboy rayonunun Səfikürd kəndində iki nəfər - 1993-cü il təvəllüdlü Aynurə Rəsulova və 2013-cü il təvəllüdlü Süräyyə Rzayeva dəm qazından zəhərləniblər, hər iki şəxsin durumu sabitdir.

■ Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, Azərbaycanda indiyədək ümumilikdə 229 584 nəfər koronavirus infeksiyasına yoluxub, onlardan 221 717 nəfər müalicə olunaraq sağalıb, 3 105 nəfər vəfat edib, aktiv xəstə sayı 4 762 nəfərdir.

■ ABŞ-ın sabiq vitse-prezidenti Mayk Pensin hazırda daimi yaşayış yeri yoxdur, o, vida müraciətində bu yay doğma ştatı - İndianaya qayıdacağını bildirib, lakin xanımı Karen Penslə hara köçəcəyi barədə heç bir məlumat verməyib.

■ Qırğızıstanın keçmiş Baş naziri Məhəmmədkalı Abılqaziev qanunsuz zənginləşmə şübhəsi ilə saxlanılıb, o, əvvəlcə dindirilməyə çağırılıb və sonra ona qarşı ittiham irəli sürülüb.

■ Bu həftənin sonunda ölçüsü 100 metrə qədər olan bir neçə asteroid Yer kürəsinin yaxınlığından keçəcək, yanvarın 28-də "2021 BZ" asteroidinin hərəkət xətti planetimizdən təxminən 2,2 milyon kilometr aralıda olacaq, ölçüləri 29-65 metr arasında qiymətləndirilir.

■ Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları Bakıxanov qəsəbəsində karantin qaydalarını pozaraq işçiləri qapalı məkanda tibbi maskadan istifadə etməyən şirniyyat sexi aşkar ediblər. Obyektə baxış zamanı sexdə işləyən 18 nəfər tibbi maskadan istifadə etmədikləri üçün hər biri İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimə edilib və onlarla profilaktik söhbətlər aparılıb.

## "Qaçqınkom"da bir neçə şöbə ləğv edilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində ölkə rəhbərliyinin qarşıya qoyduğu vəzifələrin icrasını təmin etmək, idarəetmənin səmərəliliyini artırmaq məqsədilə struktur dəyişikliyi aparılıb.**

Dövlət Komitəsindən hafta.az-a verilən məlumata görə, Hüquq və İnsan resursları sektorları ləğv edilərək, onların bazasında Hüquq və kadrlar şöbəsi yaradılıb. Miqrasiya, məşğulluq və status şöbəsi Regional idarəetmə və status şöbəsi ilə əvəzlənib, həmçinin ayrıca Məşğulluq sektoru yaradılıb. İnformasiya texnologiyalarının tətbiqi və elektron idarəetmə şöbəsinin İnformasiya texnologiyaları və Elektron idarəetmə sektorları birləşdirilib. Sosial təminat və kommunal xidmətlər şöbəsinin tərkibindəki Sosial təminat və kommunal xidmətlər sektorunun əvəzinə hər iki istiqamət üzrə iki ayrı sektor təşkil edilib. Aparatın tərkibində yeni - Monitorinq şöbəsi yaradılıb. Bundan başqa, komitənin Göygöl və Bakı şəhərinin Pirallahı rayonu üzrə yerli bölmələri ləğv edilib. Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 noyabr tarixli 652s nömrəli Sərəncamı əsasında Dövlət Komitəsi aparatı işçilərinin ümumi say həddi 88-ə çatdırılıb.



## Tarix



*Dünyanın hər yerində Holokostun - yəhudi millətinin II Dünya müharibəsi illərində faşist rejimi tərəfindən kütləvi surətdə məhv edilməsinin ildönümü qeyd olunmaqdadır. Ötən əsrin ən böyük faciəsi - soyqırımı kimi tanınan Holkost (yunanca "holos" (bütün) və "kaustos" (yanmış, köz olmuş) zamanı faşistlər tərəfindən təxminən 6 milyon yəhudi sistemli şəkildə öldürülüb.*

# Bir milləti məhv etmə cəhdi

1933-cü ildə yəhudilərin hüquqlarının azaldılması ilə addım-addım başlayan fəlakət sonda faşist hökumətinin əlinə keçən bütün Avropa yəhudilərini öldürməsi ilə nəticələnib. 1933-cü il 1 aprel tarixində Adolf Hitler alman xalqını yəhudi dükanlarına qarşı boykota dəvət edib. Bu boykot yəhudi dükanlarının sökülməsi, qarət edilməsi və sahiblərinin döyülməsi ilə nəticələnib. 1935-ci ildə yəhudilərin həkimlik, əczaçılıq, əsgərlik və bir çox işlərdə çalışması qarağan edilib. 15 sentyabr 1935-ci il tarixində qəbul olunan "Nurnberg qanunları"na görə ari irqdən olmayanlar "aşağı sinif" insanlardır və onlarla ailə qurmaq yasaqlanıb. 1936-cı ildə Berlində keçirilən olimpiya oyunları ilə dünyanın diqqətinin Almaniyaya yönəlməsi sayəsində bir müddət yəhudi nifrəti, antisemitizm tətbiqetmələri arxa planda qalır. Amma 1938-ci ildən etibarən antisemitizm əvvəlkindən daha şiddətli şəkildə geri dönür. 1938-ci ilin yanvarından etibarən yəhudilərin yalnız yəhudi adlarından və soyadlarından istifadə etməsi haqqında yeni qayda qəbul olunub. Berlində 1600 yəhudi toplanaraq qapalı düşərgələrə aparılır. Bu xəbər yayıldıqdan sonra işsiz yəhudilərdən və ən kasıblarından bir qismi xaricə getməyə məcbur olur. Qısa zaman sonra yəhudilərin qaçmaları da çətinləşir - bir çox ölkə yəhudi köçlərini geri qaytarmağa başlayır.



# HOLOKOST

1 sentyabr 1939-cu ildə yəhudi soyqırımına start verilib. Hitler əslində, yəhudilərin kökünü kəsmək haqda qərarını 14 il əvvəl - 1925-ci ildə yazdığı "Mein Kampf" (Mənim mübarizəm) adlı kitabında açıqlamışdı. 1939-cu ildə Almaniyadakı bütün yəhudilərin toplanıb Polşada gettolara yerləşdirilmələri qərarı verilmişdi. 1940-cı ildə Polşada sayı sürətlə artan gettolarda aclıqdan, soyuqdan və epidemiyalardan çoxlu insan ölürdü. Gettolarda ölüm artıq o qədər təbii idi ki, səkilərdə acından ölmək üzrə olan insanlarla və cəsədlərlə kimsə maraqlanmırdı. 9 oktyabr 1941-ci ildən etibarən bütün yəhudilərin yaxşı görünən şəkildə olmaqla, Davud ulduzu simvolunu üzərilərində daşımaları məcbur edilirdi. Almaniyada yaşayan yəhudilərin evlərinə üzərində "burda bir yəhudi yaşayır" sözləri yazılmış kağız, ya da Davud ulduzu yapışdırırdılar. Almaniyadakı son yəhudilərə ət, buğda, süd, bal kimi qidalar, xəstə yəhudilərə dərman vermək qadağan edilir. 1939-41-ci illərdə ruhi və fiziki əlillər "qaz otaqlarına" doldurularaq öldürülürdülər. Qətliamın bu dövründə faşist həkimlər əlil qurbanlar üzərində çox sayda yeni ölürmə metodları yoxlamışdılar.

Qaz maşınları ilə öldürmə metodu da faşistlərin gözlədikləri təsiri verməyincə nəhayət Fabrik üsulu ilə sənayesi qurulmağa başlandı.

Artıq heyvan vaqonları yəhudilərlə doldurulub bu fabriklərin içinə qədər qatarla aparılırdılar. Duş otağı görünüşünə sahib olan qaz otaqlarına yəhudilər çox etiraz etmədən toplu halda girirdilər. Beləcə rahatlıqla, ən təsirli öldürmə qazı olan "Zyklon B" bu otaqlara nasosla vurulur və insanlar məhv olurdular. Bu qaz 20 dəqiqə davam edən çox əziyyətli bir ölümə gətirib çıxarırdı. Sonra bu cəsədlər, sırf bu məqsəd üçün çıxarılmış olan sobalarda yandırılırdı.

20 yanvar 1942-ci ildə Adolf Eiçmann tərəfindən idarə olunan yüksək dövlət məmurlarının Yəhudi probleminin son həllinin təşkil edilməsinin detallarını danışdıqları "Wannsee" Konfransı reallaşdı. Bu protokola görə öldürülmələri planlaşdırılan Avropa yəhudilərinin sayı 11 milyon idi. Faşistlərin yəhudiləri kütləvi şəkildə qətlə yetirdiyi tarixdə acı şöhrətini tapmış bir sıra ölüm düşərgələri mövcud olub. Bunlar Ausçvitz-Birkenau, Kulmhof, Varşava, Lublin, Belzec Lublin və sardir. Bəzi məlumatlara görə, o vaxt Hitler Moskvaya təklif edir ki, Almaniya və Polşadakı yəhudiləri Birobican (Sibirin Amur bölgəsindəki indiki yəhudi muxtariyyəti - V.T.) və Qərbi Ukraynaya köçürsünlər. Amma Sovet hakimiyyəti bu təkliflə razılaşmır və nəticədə yəhudilər Ausçvitz və Treblinka şəhərindəki əsir düşərgələrinə göndərilir. Bu arada bildirək ki, Polşa prezidenti Andrzej Duda, Auschwitz - Birkenau ölüm düşərgələrinin azad edilməsinin 75 illiyi münasibətilə ötən il yanvarın 23-də Qüdsdə keçirilən tədbirdə iştirak etməyib. Səbəb də o idi ki, Molotov-Ribbentrop Paktını imzalayan dövlətlərin (Almaniya və Rusiya) nümayəndələri, Holokostun əsas günahkarları olan Almaniya, eləcə də yəhudiləri tutaraq faşistlərə təhvil verən Fransanın təmsilçisi həmin tədbirdə iştirak və çıxış edəcək. Yəni 75 il öncə yəhudi millətinin qatili olanlar, bu gün mələk donunda həmin qurbanların övladlarına-nəvələrinə başsağlığı verəcəklər və bu cür riyakarlıq Polşa prezidenti tərəfindən qəbul edilməyib.

Dünyanın bir çox ölkələrində Holokost mübahisəsini açmaq belə qadağandır. ABŞ-dakı "nifrət qanunları"na görə yəhudi soyqırımını müzakirə etmək cəmiyyətdəki nifrəti artırdığına görə bu mövzunu müzakirə etmək qadağan olunub.

Avropada isə ingilis yazıçı David İrving yəhudi soyqırımının çox böyük ölçülü olmadığını, ölənlərin çoxunun xəstəlikdən öldüyünü söyləyib, Almaniyanın heç bir düşərgəsində qaz otaqlarının tapılmadığını dediyinə görə 3 il həbsə məhkum edilib.

İranın keçmiş prezidenti Mahmud Əhmədinejad isə yəhudi soyqırımının yəhudiləri Fələstin torpaqlarına yerləşdirmək üçün uydurulmuş yalan olduğunu söyləyib.

*✍ Vüsal Tağıbəyli*

# Müəllimlərin dərs yükü artmayacaq

## Təhsil



**Hibrid dərs forması tətbiq edildiyi zaman müəllimlərin dərs saatlarında heç bir izafi yük yaranmayacaq. Bunu dünən keçirilən vebinarda Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə s?o?bəsinin mu?diri Vəfa Yaqublu deyib.**

Onun sözlərinə görə, müəllimin nə qədər dərs yükü varsa, o, iki qrup arasında bölünəcək: "Bu halda sual yaranır kı, uşaqlar onda az dərs saatı alırlar. Hesab edirik ki, yerdə qalan saatı teledərslə kompensasiya etmək olar". Fevralın 1-dən tədris qismən bərpa edildikdən sonra sinif üzrə yoluxma halı baş verərsə, bu halda həmin sinif distant təhsil formasına keçəcək. Vəfa Yaqublu deyib. Onun sözlərinə görə, yoluxma ilə bağlı görüləcək tədbir onun miqyasından asılıdır:

"Bununla bağlı normativlər var. Sinif üzrə yoluxma olduqda sinif, məktəb üzrə yoluxma zamanı məktəb distant formaya keçəcək".

Siniflərdə şagird sıxlığı az olsa belə, Bakı, Sumqayıt və Abşeronda fevralın 1-dən ibtidai sinif şagirdləri üçün dərslər həftədə 3 dəfə olacaq. Vəfa Yaqublu deyib. Onun sözlərinə görə, bölgələrdə siniflərdə şagird sayı çoxdursa, o halda sinif iki qrupa bölünəcək. Şagirdlərinin sayı hər partada bir nəfərin oturmasına imkan verirsə, həmin siniflər məktəbə 5 dəfə gedə biləcəklər.

V.Yaqublu qeyd edib ki, məktəblərdə qaydalara əməl edilmə vəziyyətinin öyrənilməsi üçün daimi monitorinq aparılacaq. Fevralın 1-də tədris bərpa olunacağı zaman məktəblərdə bufetlər fəaliyyət göstərməyəcək. Vəfa Yaqublu deyib. O qeyd edib ki, Nazirlər Kabinetinin sentyabr ayında verdiyi qərarla pandemiya dövründə məktəblərdə bufetlərin fəaliyyəti müvəqqəti dayandırılıb: "Bu qərar yenə də öz qüvvəsində qalır".

Birinci yarımilinin nəticələrindən narazı qalan şagirdlər fevralda apelyasiya ilə məktəbə müraciət edə biləcəklər. Vəfa Yaqublu deyib. Onun sözlərinə görə, əvvəl məktəbdə şagirdlərin nəticələri təhlil olunacaq. Şagirdlərin lehinə və əleyhinə qərar veriləcək: "Daha sonra isə qiymətləndirmə keçiriləcək. İmtahan gününü məktəblərin özü müzakirə edəcəklər. Bu məsələ məktəb səviyyəsində həll ediləcək. Amma ola bilər ki, 15 şagirdin qiymətləndirməsi aparılacaqsa, o uşaqlar qrupa bölünə və digər siniflərdə qiymətləndirmədən keçə biləcəklər". Orta məktəblərdə keçirilən qiymətləndirmə prosesinin imtahan adlandırılması düzgün deyil, bunlar fərqli anlayışlardır, bu ifadələr işlədilərkən buna diqqət yetirilməlidir.


# "Azercell"in rəqəmsal məhsulları IBA Mobile tətbiqində! Ⓡ




**İndi Azercell-in rəqəmsal həlləri IBA Mobile tətbiqində! Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC Azərbaycan Beynəlxalq Bankı ilə birgə əməkdaşlıqda daha bir yeniliyə imza atır.**

Artıq Azərbaycan Beynəlxalq Bankının IBA Mobile mobil əlavəsinin istifadəçiləri tətbiq vasitəsilə Azercell-in NNTV, Bookmate, BluTV və ivi xidmətlərini aktivləşdirmək imkanı əldə edir. Xidmətlərə qoşulmaq qaydası çox sadədir. İstifadə rahatlığı və funksionallığı ilə seçilən IBA Mobile-də "Digər" bölümünü seçdikdən sonra "Partnyorlar" bölümünə keçid edib "Azercell tətbiqləri" sırasında sevdiyiniz xidmətə abunə ola bilərsiniz. 4 milyondan çox dünya və Azərbaycan ədəbiyyatı əsərlərini elektron və audio formatda özündə cəmləşdirən Bookmate tətbiqini lider mobil operator eksklüziv şərtlərlə təqdim edir. Yalnız Azercell abunəçiləri xidmətə 50% endirimlə- ayda cəmi 3.50 AZN ödəyərək qoşula bilərlər. Bookmate mütaliəsevərlərə məkandan və istifadə olunan cihazdan asılı olmayaraq Azərbaycan, türk, ingilis, rus və digər dillərdə zəngin elektron kitabxanadan yararlanmaq, sevdiyi kitabları sosial şəbəkələrdə dostları ilə paylaşmaq, eləcə də tətbiqi yeni kitablarla daha da zənginləşdirmək imkanı verir. Xidmətdən günlük istifadə haqqı 0.19 AZN təşkil edir.

Azərbaycanda yalnız Azercell abunəçilərinin yararlana biləcəyi NNTV xidməti 200-dən çox yerli və xarici televiziya kanallarını internet üzərindən onlayn surətdə və yüksək keyfiyyətdə izləmə imkanı verir. Xidmətdən ayda 4 AZN və ya gündə 0.20 AZN ödəməklə yararlanmaq mümkündür. Abunəçilərinin rahatlığını hər zaman düşünən Azercell, bu xidmət üçün xüsusi paketlər də təqdim edir. Ətraflı məlumat üçün <https://www.azercell.com/az/-personal/digital-solutions/nntv.html> səhifəsinə keçid etməyiniz xahiş edilir.

Azercell son illər ərzində dünyada sürətlə populyarlıq qazanan türk kino və seriallarını, eləcə də türk TV kanallarını BluTV ilə müstəsna tərəfdaşlıq çərçivəsində endirimli qiymətlərlə təqdim edir. İzləmə rekordları ilə seçilən türk kinematoqrafiyasını 4K keyfiyyətdə və reklamsız ayda 4.99 AZN deyil, cəmi 3 AZN-ə smartfonlarınızda və ya Smart TV-də izləyin! Günlük abunə haqqı 0.25 AZN təşkil edir.

Kinoteatrların bağlı olduğu bir zamanda Azercell kino pərəstişkarlarını ivi xidməti ilə sevindirir. Dünyanın ən populyar və eksklüziv filmlərini Smart TV də daxil olmaqla, eyni anda 5 cihazda izləmək imkanı verən ivi xidmətindən ayda cəmi 5.99 AZN-ə və ya gündə 0.40 AZN-ə yararlanmaq mümkündür. Ən yeni filmləri ivi ilə yüksək keyfiyyətdə və reklamsız izləmək fürsətini qaçırmayın!

Azercell-in Big Data və Təhlillər departamentinin direktoru, İstehlakçı Seqment Biznes strukturunun rəhbəri Azad Hüseynov bildirdi: "Artıq 2 ildir ki, rəqəmsallaşma siyasətimizi uğurla həyata keçiririk. Özünəxidmət məhsullarının xüsusilə aktual olduğu bir zamanda abunəçilərimizin həyatını innovativ biznes həlləri ilə asanlaşdırmağa çalışırıq. Azərbaycan Beynəlxalq Bankı ilə birgə bu istiqamətdə daha bir önəmli addım atdığımızı düşünür və bu əməkdaşlığın müştərilərimiz üçün faydalı olacağına inanıram". Azərbaycan Beynəlxalq Bankının İdarə Heyəti sədrinin müavini, Bankın Baş Transformasiya İnzibatçısı Taleh Tahirli mobil xidmətlərin bu şəkildə uğurlu inteqrasiyasının ölkəmizdə innovasiya ekosisteminin inkişafına xidmət etdiyini qeyd etdi: "Hər biri öz sahəsində lider olan Azərbaycan Beynəlxalq Bankı və Azercell şirkətinin bu istiqamətdə öz imkanlarını birləşdirməsi faydalı müştəri təcrübəsi formalaşdıracaq və yeni innovativ həllərin ortaya çıxmasına zəmin yaradacaq". Azercell-in rəqəmsal məhsullar portfeli ilə tanış olmaq üçün <https://www.azercell.-com/az/personal/digital-solutions.html> səhifəsinə keçid etməyiniz xahiş olunur.



# "Nar" onlayn təhsil alanlar üçün yeni internet paketi təqdim edib Ⓡ

**"Nar" pandemiya dövründə onlayn formatda təhsil alan şagird və tələbələrin, eləcə də müəllimlərin dərslərə istənilən məkandan rahatlıqla qoşula bilməsi üçün "TƏHSİL+" internet paketini təqdim edib. Yeni internet paketi ilə "Microsoft Teams", həmçinin də "Zoom" tətbiqlərindən heç bir sürət limiti olmadan, istər tətbiq, istərsə də veb-brauzer üzərindən istifadə etmək mümkündür.**




Bu paket çərçivəsində abunəçilərə hər iki tətbiqdən istifadə üçün sürət limiti olmayan 50GB təqdim olunur. Qeyd edək ki, "TƏHSİL+" internet paketinin üstünlüklərindən biri də "hotspot" funksiyası vasitəsilə internetin paylaşıla bilən olmasıdır. Paketin qiyməti 10 AZN təşkil edir. Sərfəli internet paketindən yararlanmaq üçün abunəçilər *777#21# kodunu yığa və ya "777" nömrəsinə "T+" açar sözünü göndərərək paketi aktivləşdirə bilərlər. "Nar" uzunmüddətli KSM strategiyası çərçivəsində ölkədə təhsilin inkişafını dəstəkləyən bir çox sosial layihələr həyata keçirir.

Təqdim olunan yeni internet paketi də ictimai izolyasiya dövründə təhsil prosesində iştirak edən şagird və tələbələrə, eləcə də müəllimlərə dəstək məqsədilə yaradılıb. "TƏHSİL+" internet paketi haqqında daha ətraflı məlumat üçün buradan <https://www.-nar.az/tehsil-plus/> ala bilərsiniz.


## GÜNÜN FOTOSU



**Putinin Almaniyadakı evinin görüntüləri yayıldı...**

# Ermənilər Xocavənddə Njdeyə heykəl qoyublar

**Fikrət Sadıqov,**
politoloq

Rus sülhməramlıları istəsəydilər, orada heç bir heykəl qoyulmazdı.

⏩ Səh. 3

## STATİSTİKA



■ 2000-2050-ci illər ərzində dünyada yaşı 60-dan yuxarı olan insanları sayı 11 faizdən 22 faizə yüksələrək 605 milyondan 2 miyarda çatacaq.

■ Fransada yaşı 65-dən yuxarı olan insanların sayı iki dəfə artması üçün 100 il zaman tələb olunub. Braziliya və Çin kimi ölkələr üçün bu göstərici 25 ilə bərabərdir.

■ Dünyanın inkişaf etmiş ölkələri üzrə yaşlı insanların 4-6 faizi evdə hansısa formada pis rəftarla üzləşirlər.



⏩ Səh. 7

# Su filtrləri: ekoloji təmizlik, yoxsa?..